20_27 IYUl-QARA.qxd 6/4/2026 10:43 PM Page 1


# UNİKAL

№20 (2300) 5 iyun 2026-cı il

Qiymәti 50 qәpik

Qurucusu: Asәf Rzayev

www.unikal.az




# Azәrbaycanda bahalaşmanın yeni gizlinlәri



Sәh.8

## 300 mindәn çox şagird monitorinq edilәcәk

*İyunun 5-dә Mәktәbәqәdәr vә Ümumi Tәhsil üzrә Dövlәt Agentliyi vә Tәhsil İnstitutu tәrәfindәn IV siniflәr, 6 iyun tarixindә isә VI siniflәr olmaqla ölkә üzrә bütün dövlәt ümumi tәhsil müәssisәlәrindә monitorinq tәşkil olunacaq. "Unikal" Mәktәbәqәdәr vә Ümumi Tәhsil üzrә Dövlәt Agentliyinә istinadәn xәbәr verir ki, tәhsilalanların bilik vә bacarıqlarının qiymәtlәndirilmәsi mәqsәdilә ölkә üzrә ümumilikdә 300 mindәn çox 4-cü vә 6-cı sinif şagirdlәri arasında monitorinq hәyata keçirilәcәk. Ümumilikdә 13 552 şagirdin kompüter әsaslı monitorinqdә iştirakı nәzәrdә tutulur. Bu il ilk dәfә olaraq monitorinq tapşırıqlarına açıq tipli suallar daxil edilәcәk. Qeyd edәk ki, IV siniflәrdә monitorinq tәdris dili vә riyaziyyat fәnlәri, VI siniflәrdә isә monitorinq tәdris dili, tәbiәt vә riyaziyyat fәnlәri üzrә aparılacaq. IV sinif şagirdlәrinә tәdris dili fәnni üzrә 28 qapalı, 2 açıq yazılı sual...*

Sәh.4

## "Dәyişikliklәr mәrhәlәli şәkildә olmalıdır"



*"Dövlәt qulluğu haqqında" qanuna tәklif olunan dәyişikliyә әsasәn, Naxçıvan Muxtar Respublikasında Azәrbaycan Respublikası Prezidentinin sәlahiyyәtli nümayәndәliyi artıq 1-ci kateqoriya dövlәt orqanı statusuna malik olacaq. Tәklif edilәn digәr dәyişikliklәrә әsasәn, Naxçıvanda Azәrbaycan...*

Sәh.4

## Azәrbaycan turizmindә yeni böhran



*Yola salmaq üzrә olduğumuz hәftә mәlum oldu ki, cari ilin әvvәlindәn etibarәn Azәrbaycana gәlәn turistlәrin sayında kәskin azalma müşahidә olunur. Belә ki, rәsmi statistikaya әsasәn, 2026-cı ilin ilk 4 ayında Azәrbaycana 658.5 min turist gәlib. Bu isә әvvәlki ilin eyni dövrü ilә müqayisәdә....*

Sәh.5

## Mehriban Abasquliyeva mәhkәmә zalında hәbs edildi



*Respublika Perinatal Mәrkәzindә 7 körpәnin ölümünә sәbәb olan yanğınla bağlı mәhkәmә araşdırması başa çatıb. "Unikal" xәbәr verir ki, Bakı Ağır Cinayәtlәr Mәhkәmәsindә hökm oxunub. Leyla Әsgәrova-Mәmmәdovanın sәdrlik etdiyi mәhkәmә kollegiyası yekunda nәticәyә gәlib ki, tәqsirlәndirilәn...*

Sәh.5

20_27 IYUl-QARA.qxd 6/4/2026 10:43 PM Page 2



# Müğənnilərin fantastik toy qiymətləri - Siyahı



***Azərbaycanda toylar şou-biznes nümayəndələrinin ən böyük qazanc mənbələrindən biri sayılır. Xüsusilə məşhur müğənnilərin iştirak etdiyi məclislər həm dəbdəbəsi, həm də yüksək qonorarları ilə diqqət çəkir. Son illər sənətçilərin toy qiymətləri ətrafında aparılan müzakirələr xeyli artıb. Bir çox hallarda yarım saatlıq çıxış üçün tələb olunan məbləğ adi vətəndaşların aylıq gəlirini dəfələrlə üstələyir.***



Bəs Azərbaycanın tanınmış müğənniləri bir toy məclisində iştirak etmək üçün nə qədər qonorar alırlar? Yarım saatlıq proqramla bütöv toyun qiyməti arasında hansı fərq var? Ən bahalı sənətçilər kimlərdir və onların tələb etdiyi məbləğlər hansı səbəblərdən dəyişir?

"Unikal" "yenisabah.az"a istinadla xəbər verir ki, Azərbaycanın şou-biznes nümayəndələrinin toylara hansı məbləğə getmələri ilə bağlı araşdırma aparıb.

Araşdırmanın nəticələrini təqdim edirik:

1. Xalq artisti Faiq Ağayev toylarda yalnız yarım saatlıq çıxış edir. O, bütöv və 1 saatlıq toy məclislərinə qatılmır. İfaçının toyda yarım saat çıxış etməsinin qiyməti 10 min manatdır.

2. Günay İbrahimli toylarda yarım saat iştirak etmək üçün 6 min manat qonorar tələb edir. Bütöv toyu idarə etmək isə səs sistemi, ansambl, vokalist daxil 15 min manatdır.

3. Murad Arif yarım saatlıq çıxış üçün 4 min manat tələb edir. Bütöv toyun qiyməti isə 14 min manatdır.

4. Xəyyam Nisanov Bakıda olan toy məclislərində yarım saat üçün 5 min manat qonarar tələb edir. Bütöv toyun qiyməti isə 15 min manatdır.

5. Əməkdar artist Abbas Bağırov toy məclislərində yarım saatlıq çıxış üçün 6 min, bütöv toyu aparmaq üçün isə 18 min manat tələb edir.

7. Müğənni Manaf Ağayev bütöv toy məclisində çıxış üçün 3.500 manat qonarar tələb edir. O, məclisə öz ansambılı ilə qatılır və bir nəfər də xanım ifaçı gətirir.

8. Xalq artisti Tünzalə Ağayeva toy məclislərində yarım saatlıq və 45 dəqiqəlik çıxış edir. O, yarım saat üçün 6500, 45 dəqiqəlik ifa üçün isə 10 min manat vəsait tələb edir.

9. Əməkdar artist Manana Caparidze isə Bakıda toy məclislərində yarım saatlıq çıxış üçün 5 min, 1 saatlıq çıxış üçün isə 7 min manat vəsait tələb edir. İfaçı bütöv toy məclislərində iştirak etmir.

10. Xatirə İslam yarım saatlıq ifa üçün 5 min, bütöv toy məclisi üçün isə ansamblla birlikdə 12 min, ansamblsız isə 8 min manat vəsait tələb edir.

11. Kəmalə Günəşli 1 saatlıq məclis üçün 2 min, bütöv toy üçün ansamblla 5000, ansamblsız isə 3500 manat qazanc əldə edir.

12. Xuraman Şuşalı toy məclislərində yarım saatlıq ifa üçün 1500, 1 saat üçün 2 min, bütün məclis üçün isə 4 min manat tələb edir. Əgər bütöv məclisdə musiqiçiləri ilə birlikdə çıxış edəcəksə, onda qiymət 6 min manat olur.

13. Xalq artisti Brilyant Dadaşova yarım saatlıq çıxış etdiyi məclisdən 8 min, bütöv toy idarə etmək üçün isə 15 min manat qazanc əldə edir.

14. Xalq artisti Zülfiyyə Xanbabayeva isə toy məclislərində yalnız yarım saatlıq iştirak edir. Sənətçi bu çıxışı üçün 7 min manat qonarar tələb edir.

15. Xalq artisti Eyyub Yaqubov da bütöv toy məclislərində iştirak etmir. Yarım saatlıq çıxış üçün isə 4 min manat qazanc əldə edir.

16. Elit Star ləqəbi ilə tanınan Cəmilə Bayramova məclislərdə yalnız yarım saatlıq çıxış edir. O, bu ifa üçün 500 manat alır.

17. Əməkdar artist Könül Kərimova toy məclislərində yarım saatlıq ifa üçün 3 min, 1 saat üçün 4 min, toy məclisində tam iştirak üçün isə 10 min manat vəsait tələb edir.

18. Əməkdar artist Elnarə Abdullayeva yarım saatlıq çıxış üçün 4 min, toyu tək idarə etmək üçün 7 min, ansamblla çıxış üçün isə 12 min qonarar alır.



## Tacir Şahmalıoğlu onları məhkəmə ilə hədələdi

***Müğənni Tacir Şahmalıoğlu sosial şəbəkələrdə onu geyiminə görə tənqid edənlərə cavab verib.***

Sənətçi instaqram hesabında şərh yazanlara xəbərdarlıq edib. O bildirib ki, bununla bağlı məhkəməyə müraciət edəcək: "Son günlər bəzi sosial media hesablarında və internet informasiya resurslarında mənimlə bağlı yayılan paylaşımları izləyirəm. Təəssüf hissi ilə qeyd edirəm ki, bəzi şəxslər və media platformaları müəyyən görüntüləri qərəzli şəkildə təqdim edərək onları lağ-lağı və istehza mövzusuna çevirməyə, bundan diqqət cəlb etmək və öz maraqları naminə istifadə etməyə çalışırlar. Belə yanaşma nə peşə etikasına, nə də milli-mənəvi dəyərlərimizə uyğun hesab oluna bilər.

Şəxsin şərəf və ləyaqətinin alçaldılması, ictimai nüfuzunun hədəfə alınması və təhqiramiz məzmunun yayılması qəbuledilməzdir. Bu cür davranışlar cəmiyyətdə qarşılıqlı hörmət mühitinə zərbə vurur və yanlış ictimai rəy formalaşdırır.

Bu səbəbdən şərəf və ləyaqətimə, eləcə də ictimai nüfuzuma zərər vuran paylaşım və materialların silinməsini tələb edirəm. Əks təqdirdə, qanunvericiliyin verdiyi hüquqlardan istifadə ediləcək və aidiyyəti şəxslər barəsində müvafiq hüquqi tədbirlərin görülməsi üçün rəsmi müraciətlər olunacaqdır.

Azərbaycan musiqisinə və mədəniyyətinə həsr etdiyim uzun illərin fəaliyyəti, tamaşaçı sevgisi və sənət yolunda qazandığım hörmət isə bu cür qərəzli yanaşmalara verilən ən tutarlı cavabdır".

## Elza Seyidcahan Roza Zərgərli haqda danışmaq istəmədi

***Əməkdar artist Elza Seyidcahan müğənni Roza Zərgərli ilə barışması haqda xəbərlərə münasibət bildirmək istəməyib.***



Axşam.az xəbər verir ki, "Qonaqcanlı" verilişində qonaq olan sənətçi aparıcının "Bildiyimə görə Roza və Elza xanımın arasında barışıq addımı var" sözlərinə belə cavab verib: "Bu barədə qətiyyən danışmaq istəmirəm. Bu mövzuda ilk danışan da olmaq istəmirəm. Mən heç vaxt heç kimdən küsmürəm".

Qeyd edək ki, Roza Zərgərli yutubda yayımlanan "Baylarsoylar" layihəsində Seyidcahanın ünvanına təhqiramiz fikirlər səsləndirərək, onu "meymun", "təlxək", "dəli" adlandırıb. Şərəf, ləyaqət və işgüzar nüfuzunun təhqir edildiyini bildirən E.Seyidcahan qarşı tərəfi məhkəməyə verib.

20_27 IYUl-QARA.qxd 6/4/2026 10:43 PM Page 3



## "Son 10 ildə kənd təsərrüfatında artım 37,8 faiz olub" - Nazir müavini



***"Son 10 ildə kənd təsərrüfatında artım 37,8 faiz olub"***

"Unikal" xəbər verir ki, bunu Kənd Təsərrüfatı Nazirliyində keçirilən mətbuat konfransında kənd təsərrüfatı nazirinin müavini Zaur Əliyev deyib.

Nazir müavini bildirib ki, fermlərin lizinqə çıxış imkanları yaxşılaşdırılıb.

"Ümumilikdə elektron kənd təsərrüfatı genişləndirilib. Dövlət Proqramının icrası nəticəsində kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində yaradılan ümumi daxili məhsulun 2026-2030-cu illər üzrə orta illik artımı ən azı 2.0% təşkil edəcəyi gözlənilir. Eyni zamanda, kənd təsərrüfatı, balıqçılıq və emal məhsullarının ixracının həcmi orta illik 6% artacağı gözlənilir".

Qeyd edək ki, mətbuat konfransı kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin verdiyi tapşırıqların icrası və Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026?2030-cu illər üçün Dövlət Proqramından irəli gələn məsələlərə həsr olunub.

***Anar Kəlbiyev***

## Azərbaycanda tramvay xətləri dövlət mülkiyyətində olacaq

***Azərbaycanda tramvay xətləri dövlət mülkiyyətində olacaq.***

"Unikal" xəbər verir ki, bu məsələ Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bugünkü iclasında müzakirəyə çıxarılan "Nəqliyyat haqqında" Qanuna təklif edilən dəyişiklik layihəsində əksini tapıb.

Mövcud qanunvericiliyə görə, ölkədə nəqliyyat dövlət, xüsusi və bələdiyyə mülkiyyət növlərinə əsaslanır.

Bütün nəqliyyat mülkiyyətçiləri bərabər hüquqa malikdirlər və qanunla eyni cür müdafiə olunurlar.

Ümumi istifadədə olan və dövlət əhəmiyyəti kəsb edən dəmir yolları və onların mühəndis tikililəri və qurğuları, magistral boru kəmərləri, mayaklar, gəmilərin təhlükəsiz hərəkətini nizamlayan və ona zəmanət verən qurğular və naviqasiya nişanları, hava hərəkətinin təşkili sisteminin obyektləri, həmçinin metropoliten dövlət mülkiyyətidir

Layihədə təklif olunur ki, bu siyahıya tramvay xətləri (infrastrukturu) də əlavə edilsin.

## Hesablama Palatasına yeni səlahiyyətlər verilir

***Hesablama Palatasına yeni səlahiyyətlər verilir.***

"Unikal" xəbər verir ki, bu məsələ Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bugünkü iclasında müzakirəyə çıxarılan "Büdcə sistemi haqqında", "Sığorta fəaliyyəti haqqında" və "Hesablama Palatası haqqında" qanunlara təklif edilən dəyişiklik layihəsində əksini tapıb.

Layihəyə əsasən, Hesablama Palatası Naxçıvanın büdcəsinin layihəsinə və icrasına, həmçinin müvafiq qanunların layihələrinə və illik hesabatlara dair rəy vermək səlahiyyətinə malik olacaq.

Bundan başqa, sözügedən qurum sığorta bazarının peşəkar iştirakçıları peşəkar fəaliyyətləri nəticəsində əldə etdikləri sığorta sirri hesab edilən məlumatları əldə edə biləcək.

***Anar Kəlbiyev***

# Azərbaycanda bahalaşmanın yeni gizlinləri

## Yumurta özümüzə 20 qəpik, xaricilərə 10 qəpik... - Kartofu isə maya dəyərindən 8 dəfə baha alırıq

***Bu ilin ilk 3 ayı ərzində Azərbaycandan Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) ümumi dəyəri 43,12 min dollar olan 705,6 min ədəd toyuq yumurtası ixrac edilib. Rəsmi rəqəmlərdən belə məlum olur ki, ixrac olunan yumurtanın 1 ədədinin orta gömrük dəyəri 6,1 sent (təxminən 10,4 qəpik) olub.***

Müqayisə üçün qeyd edək ki, əvvəlki ilin eyni dövrü ilə müqayisədə yumurta ixracı 51 dəfə azalıb. Ötən ilin ilk 3 ayında Azərbaycandan 3 ölkəyə - ABŞ, BƏƏ və Syerra-Leoneyə 36 milyon ədəd yumurta ixrac edilib. Bu il ixrac edilən bir ədəd yumurtanın gömrük dəyəri isə ötən ildəkindən təxminən 6% ucuz olub. Belə ki, ötən il ixrac olunan bir ədəd yumurtanın gömrük dəyəri 6,5 sent (11,1 qəpik)təşkil edib.



Lakin maraqlı orasıdır ki, bu ilin ilk 3 ayında Azərbaycanın daxili bazarında 1 ədəd toyuq yumurtasının pərakəndə satış qiyməti 20 qəpik olub.

Üstəlik, "Yeni avaz"ın məlumatına görə, ötən il Azərbaycanda kənd təsərrüfatı müəssisələri tərəfindən istehsal edilən yumurtanın bir ədədinin maya dəyəri 10,9 qəpik olub. Yəni son bir ildə yumurtanın maya dəyəri 12,1% aşağı düşüb.

Daha bir maraqlı statistika isə kartofun qiyməti ilə bağlıdır. Belə ki, ötən il Azərbaycanda kənd təsərrüfatı müəssisələri və fərdi təsərrüfatlar tərəfindən ümumilkdə 41 min 436,3 ton kartof istehsal olunub. Açıqlanan rəsmi məlumatlardan aydın olur ki, istehsal olunan kartofun 41 min 320,1 tonu kənd təsərrüfatı müəssisələrinin, 116,2 tonu isə fərdi təsərrüfatların payına düşüb.

Qeyd edək ki, kənd təsərrüfatı müəssisələri tərəfindən istehsal olunan kartofun bir kiloqramının maya dəyəri 15 qəpik, fərdi təsərrüfatlar tərəfindən istehsal olunan kartofun bir kiloqramının maya dəyəri isə 34 qəpik olub.

Onu da bildirək ki, açıqlanan rəsmi məlumatlara görə ötən il Azərbaycanda yerli kartofun bir kiloqramının pərakəndə satış qiyməti 1 manat 15 qəpik təşkil edib.

Beləliklə, açıqlanan məlumatlardan görünən odur ki, 2025-ci ildə Azərbaycanda kartofun pərakəndə satış qiyməti maya dəyərindən nə az, nə çox, düz 7,7 dəfə yüksək olub.

Bəzi ekspertlər bu fərqin əsas səbəblərini daşınma və satış xərcləri ilə izah edirlər. Lakin hətta bu halda da aradakı fərqin dəfələrlə çox olmasına anlamaq çətindir. Belə çıxır ki, itirən istehsalçı ilə istehlakçıdır, əsas qazanan isə onlar arasında vasitəçilər!

Elə iqtisadçıların çoxu da deyirlər ki, istər yerli olsun, istərsə də idxal, hər hansı mal və ya məhsul normalda öz maya dəyərindən 2, ən pis halda 3 dəfə yüksək qiymətə satıla bilər. Lakin bir malın və ya məhsulun maya dəyərindən 8-9 dəfə baha satılması artıq inhisarçı maraqlardan xəbər verir və müəyyən mənada qanun pozuntusudur.

Bir müddət əvvəl iqtisadçı Natiq Cəfərli də yerli mediaya açıqlamalarından birində sözügedən məqama diqqət çəkmişdi. O idxal edilən məhsulların Azərbaycan bazarlarında ən azı 5-6 dəfə baha satıldığına dair faktların ortaya çıxmasından sonra demişdi ki, gömrük rəsmiləşdirilməsində elan edilən qiymət vergilərdən əvvəl formalaşan qiymətdir. Bunun üzərinə 18 faiz ƏDV və 15 faiz gömrük rüsumu gəlir. Belə olan təqdirdə isə malın qiyməti ölkəyə daxil olarkən 33-35 faiz bahalaşır. Lakin malın xaricdən alınan qiymətdən dəfələrlə baha qiymətə satılması qanun pozuntusudur. Bu qanun pozuntusunun səbəbi gömrük rüsumu və ya digər vergilər deyil. Əsas məsələ rəqabət mühitidir. Rəqabət mühiti tam formalaşsa, o zaman bazarda mallar maya dəyərindən dəfələrlə baha qiymətə satıla bilməz.

Yeri gəlmişkən, bir müddət əvvəl məlum olmuşdu ki, bəzi yerli mallar (məsələn, düyü, yaxud günəbaxan yağı) bir çox hallarda xarici mallardan bahadır. Sosioloq Elçin Bayramlı bu məqama diqqət çəkərək vurğulamışdı ki, normal məntiqlə yerli istehsal məhsullar heç bir halda xarici məhsullardan baha ola bilməz. Çünki nə qədər ucuz alınsa da, idxal məhsulların dəyərinə gömrük rüsumları, vergi ödənişləri, nəqliyyat xərcləri və s. əlavə olunur. Yerli istehsalçıların isə belə ödənişləri yoxdur. Bəs onda niyə yerli emal məhsulları bəzən idxal məhsullarından bahadır? Görünür, burada istehsalçı xərclərinin artması ilə yanaşı bəzi sahələrdə monopoliya meyillərinin hələ də at oynatması başlıca rol oynayır!

***Sənan Mirzə***

20_27 IYUl-QARA.qxd 6/4/2026 10:43 PM Page 4



# İrəvanda bu gün qəbul edilən qərar Rusiyanın təzyiqlərinə görə imiş - TƏHLİL

***Ermənistan hökuməti istixanalarda istehsal olunan meyvə, tərəvəz və güllərin ixracına dövlət subsidiyası ayırmaq barədə qərar qəbul edib.***

Hökumətin bu qərarı ilk baxışda kənd təsərrüfatının dəstəklənməsinə yönəlmiş texniki addım kimi görünə bilər. Lakin qərarın arxasında dayanan geosiyasi və iqtisadi səbəblər daha dərin proseslərdən xəbər verir. Əslində isə bu proqram Ermənistan iqtisadiyyatının Rusiyadan asılılığının yaratdığı risklərin və Moskva ilə İrəvan arasında dərinləşən siyasi ziddiyyətlərin növbəti təzahürüdür.

Qərarın əsaslandırılmasında xüsusi olaraq vurğulanır ki, ixrac bazarlarının şaxələndirilməsinə ehtiyac yaranıb. Bu ifadə təsadüfi deyil. Çünki 2025-ci ildə Ermənistandan ixrac edilən meyvə, tərəvəz və güllərin 93,3 faizi Rusiya bazarına yönəlib. Bu isə Ermənistanın kənd təsərrüfatı sektorunun faktiki olaraq bir bazardan asılı vəziyyətdə olduğunu göstərir.



Son aylarda Rusiya müxtəlif texniki, fitosanitar və gömrük mexanizmləri vasitəsilə Ermənistan məhsullarının ölkəyə girişini məhdudlaşdırmağa başlayıb. Formal səbəblər məhsul keyfiyyəti və sanitar normalar kimi təqdim edilsə də, İrəvanda və bir sıra beynəlxalq ekspert dairələrində bu addımlar siyasi təzyiq vasitəsi kimi qiymətləndirilir.

Moskva bununla açıq mesaj verir: Ermənistanın iqtisadi təhlükəsizliyi hələ də böyük ölçüdə Rusiya bazarından asılıdır və geosiyasi kursun dəyişdirilməsi iqtisadi nəticələr doğura bilər.

Baş nazir Nikol Paşinyan hakimiyyətə gəldiyi ilk illərdə balanslaşdırılmış siyasət aparmağa çalışsa da, xüsusilə son iki ildə Ermənistanın xarici siyasətində nəzərəçarpacaq dəyişiklik baş verib.

İrəvan Avropa İttifaqı ilə əməkdaşlığı genişləndirir, Brüssel platformasına üstünlük verir, təhlükəsizlik məsələlərində Qərblə koordinasiyanı artırır və Avropa inteqrasiyasına dair siyasi mesajları gücləndirir.

Bu proses Moskva tərəfindən Avrasiya İqtisadi İttifaqının və Rusiyanın regional nüfuzunun zəiflədilməsi kimi qəbul edilir. Kreml dəfələrlə bildirib ki, Ermənistanın Avropa İttifaqına inteqrasiya istiqamətində hərəkəti ilə Avrasiya İqtisadi İttifaqında tamhüquqlu üzvlüyü arasında ciddi ziddiyyətlər mövcuddur.

Məhz buna görə son dövrdə iqtisadi təzyiqlərin artması təsadüfi görünmür. Rusiya Ermənistanı siyasi qərarlarının iqtisadi nəticələri ilə üz-üzə qoymağa çalışır.

Paşinyan bəyan edib ki, yenidən seçildikdən sonra Rusiya Prezidenti Vladimir Putinlə görüşərək Ermənistanın gələcək xarici siyasət kursunu müzakirə etməyi planlaşdırır.

Bu açıqlama seçkilərdən sonra Ermənistanın qarşısında duran əsas strateji sualın mahiyyətini ortaya qoyur: ölkə Avropa istiqamətində hərəkəti sürətləndirəcək, yoxsa, Moskva ilə münasibətlərdə kompromis axtaracaq?

Əslində, Paşinyan hökuməti hazırda iki fərqli reallıq arasında manevr edir.

Bir tərəfdən Ermənistan cəmiyyətində Avropa İttifaqına inteqrasiya meyilləri güclənir. Qərb institutları ilə əməkdaşlıq hökumət tərəfindən modernləşmə və təhlükəsizlik zəmanəti kimi təqdim edilir.

Digər tərəfdən isə ölkə iqtisadiyyatının mühüm hissəsi hələ də Rusiya ilə bağlıdır. Enerji təchizatı, pul köçürmələri, əmək miqrasiyası, ixrac bazarları və investisiyaların əhəmiyyətli hissəsinin Moskva faktorundan asılı olaraq qalmasıdır.

Bu səbəbdən Paşinyanın qarşısında duran əsas vəzifə siyasi kursu dəyişərkən iqtisadi şoklardan yayınmaqdır.

İrəvanın ixrac subsidiyaları proqramı eyni zamanda başqa bir reallığı da göstərir. Ermənistan hələlik Rusiya bazarını tam əvəz edə biləcək alternativlər formalaşdıra bilməyib.

Avropa bazarına çıxış üçün logistika, sertifikatlaşdırma və rəqabət standartları baxımından ciddi maneələr mövcuddur. Yaxın Şərq və Körfəz ölkələri müəyyən imkanlar yaratsa da, onların həcmi Rusiya bazarı ilə müqayisə edilə bilməz.

Bu səbəbdən hökumət ixracatçılara birbaşa maliyyə dəstəyi verməklə itkiləri kompensasiya etməyə çalışır. Lakin dövlət subsidiyaları uzunmüddətli həll deyil. Əgər Rusiya bazarında məhdudiyyətlər genişlənərsə, büdcə imkanları da müəyyən müddətdən sonra kifayət etməyə bilər.

Əgər seçkilərdən sonra Ermənistan Avropa İttifaqına inteqrasiya prosesini sürətləndirərsə, Kremlin təzyiq alətlərinin genişlənməsi ehtimalı yüksəkdir.

Bu alətlər sırasında kənd təsərrüfatı məhsullarına yeni məhdudiyyətlər, gömrük prosedurlarının sərtləşdirilməsi, enerji sahəsində qiymət siyasətinin dəyişdirilməsi, əmək miqrantları ilə bağlı qaydaların sərtləşdirilməsi, Avrasiya İqtisadi İttifaqı çərçivəsində güzəştlərin məhdudlaşdırılması və s. kimi vasitələr yer ala bilər.

Moskva üçün əsas məqsəd Ermənistanı tamamilə itirməkdən çox, onun geosiyasi manevr imkanlarını məhdudlaşdırmaqdır.

İrəvan Avropa İttifaqına yaxınlaşmaq niyyətini nümayiş etdirdikcə Moskva iqtisadi rıçaqları daha fəal işə salır. Ermənistan isə bir tərəfdən Qərbə inteqrasiya etməyə, digər tərəfdən Rusiyadan iqtisadi asılılığın yaratdığı riskləri minimuma endirməyə çalışır.

Seçkilərdən sonrakı dövr Paşinyan hökuməti üçün həlledici mərhələ olacaq. Həmin mərhələdə veriləcək qərarlar yalnız Ermənistanın xarici siyasət istiqamətini deyil, həm də ölkənin iqtisadi modelinin gələcəyini müəyyənləşdirəcək. İrəvan Avropa yolunu seçərkən Moskvanın iqtisadi təzyiqlərinə nə qədər davam gətirə biləcəyi hələ də sual altındadır.

***Ağarza Elçinoğlu***





## "Süni intellekt kibertəhlükəsizliyə təsir edən əsas amilə çevrilir" - Allahverən İsmayılov

***Yaxın perspektivdə kibertəhlükəsizliyə ən ciddi təsir göstərən amil süni intellekt texnologiyalarının geniş tətbiqi olacaq.***

"Unikal" xəbər verir ki, bunu Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəis müavini Allahverən İsmayılov Dövlət Təhlükəsizliyi Xidmətinin Milli Kibertəhlükəsizlik Mərkəzinin əsas tərəfdaşlığı ilə keçirilən "4-cü Milli Kibertəhlükəsizlik Forumu"nda çıxışı zamanı deyib. O bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə son illər ölkənin rəqəmsal gələcəyini təmin edən mühüm dövlət proqramları və strategiyalar qəbul olunub. "Azərbaycan Respublikasının informasiya təhlükəsizliyi və kibertəhlükəsizliyə dair 2023-2027-ci illər üçün Strategiyası", "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Konsepsiyası" və "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyası" ali təhsil, dövlət və sənaye mühitləri arasında inteqrasiyanı strateji prioritet kimi müəyyən edib.

A.İsmayılov qeyd edib ki, Dünya İqtisadi Forumunun hesabatlarına görə, süni intellekt texnologiyalarının sürətli inkişafı kibertəhlükəsizlik sahəsində həm yeni imkanlar, həm də yeni risklər yaradır. Eyni zamanda, təhlükəsizlik üzrə sistemli və qabaqlayıcı yanaşmaların bəzi hallarda texnoloji inkişafın sürətindən geri qaldığı müşahidə olunur.

Rəis müavini vurğulayıb ki, kibertəhlükəsizlik sahəsində uğur yalnız texnoloji imkanlarla deyil, strateji düşüncə, qabaqlayıcı yanaşma və koordinasiyalı fəaliyyətlə təmin edilir. Onun sözlərinə görə, dövlət qurumları, elmi-tədqiqat institutları və özəl sektor arasında davamlı əməkdaşlığın gücləndirilməsi mühüm əhəmiyyət daşıyır. O, forum çərçivəsində aparılan müzakirələrin yeni ideyaların formalaşmasına, innovativ yanaşmaların tətbiqinə və Azərbaycanın kibertəhlükəsizlik potensialının daha da güclənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

## DGK-dən əhaliyə müraciət - Onlayn sifariş edilən məhsulların...

***Arıqlama çayları və kofeləri, dərman preparatları, qida əlavələri kimi məhsulları internet üzərindən sifariş edərkən onların tərkibinə diqqət yetirilməsi tövsiyə olunur.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Gömrük Komitəsi vətəndaşlara müraciət edib:

"Araşdırmalar göstərir ki, bu qəbildən olan bəzi məhsulların tərkibində dövriyyəsi məhdudlaşdırılmış, güclü təsirə malik - sibutramin, preqabalin və qabapentin maddələri mövcuddur.

Xatırladaq ki, bu növ məhsullar sağlamlığınız üçün təhlükə yaratmaqla yanaşı, onların qanunvericiliyin tələblərinə riayət olunmadan sifarişi, əldə edilməsi və ya düzgün bəyan edilmədən ölkəyə gətirilməsi hüquqi məsuliyyət də yaradır,"- Komitədən bildirilib.

20_27 IYUl-QARA.qxd 6/4/2026 10:43 PM Page 5



# Prezidentə təbriklər gəlir



***Ukraynanın sabiq Prezidenti Leonid Kuçma Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu ünvanlayıb.***

"Unikal" xəbər verir ki, məktubda deyilir:

"Hörmətli İlham Heydər oğlu.

Sizi və Sizin simanızda bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Mən Azərbaycana - bu mübarək torpağa dəfələrlə səfər etmişəm. Cəsur xalqınızın müstəqillik uğrunda mübarizə qəhrəmanları haqqında həqiqi dostum, atanız unudulmaz Heydər Əliyevdən eşitmişəm. Buna görə də Azərbaycanın müstəqilliyi mənim üçün sadəcə söz deyil. Mən bilirəm ki, Ukrayna xalqı da Azərbaycanı yalnız dost kimi deyil, həm də itirilmiş əraziləri geri qaytarmağa və ərazi bütövlüyünü bərpa etməyə imkan verən milli iradənin nümunəsi kimi qəbul edir. Siz buna nail oldunuz, bizdə isə bu, hələ qarşıdadır. Bu, xalqlarımız arasında xüsusi tarixi bağ yaradır.

Ümid edirəm ki, Azərbaycan xalqı da bunu hiss edir və onun həqiqi dostunun kim olduğunu başa düşür.

Gözəl Vətəninizə inkişaf və firavanlıqla bağlı ən səmimi arzularımı qəbul etməyinizi xahiş edirəm".

***

Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Tani:

"Zati-aliləri.

Dost ölkənizin Müstəqillik Günü münasibətilə Qətər Dövlətinin xalqı adından və şəxsən öz adımdan Sizə və Azərbaycan xalqına ən səmimi salamlarımı, xoş arzularla dolu təbriklərimi çatdırıram.

Sizə möhkəm cansağlığı, qardaş ölkənizə davamlı tərəqqi və firavanlıq, eyni zamanda, ölkələrimiz arasında qarşılıqlı əlaqələrin daha da inkişaf etməsini və möhkəmlənməsini arzu edirəm".

***

Qətər Dövləti Əmirinin müavini Şeyx Abdullah bin Həməd Al Tani:

"Zati-aliləri cənab Prezident.

Dost Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Zati-alinizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə davamlı inkişaf və rifah arzu edirəm".

***

Bəhreyn Krallığının vəliəhdi və Baş naziri Salman bin Həməd Al Xəlifə:

"Allahın salamı, rəhməti və bərəkəti üzərinizdə olsun.

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunam.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

Zati-alinizə ən yüksək ehtiramımı bildirirəm".

***

Küveyt Dövlətinin Vəliəhdi Şeyx Sabah Xalid əl-Hamad əl-Mübarək əl-Sabah:

"Əs-səlamu aleykum və rəhmətullahi və bərəkatuhu.

Dost Azərbaycan Respublikasının Müstəqillik Gününün növbəti ildönümü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Bu xoş fürsətdən istifadə edərək Sizə uzun ömür, cansağlığı, müvəffəqiyyətlər, Azərbaycan Respublikasına və onun dost xalqına davamlı tərəqqi və firavanlıq arzulayıram".

# Leyla və Arzu Əliyevalar internat məktəbində olublar

***Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə 11 nömrəli inteqrasiya təlimli internat tipli ümumtəhsil məktəbində olublar.***



"Unikal" xəbər verir ki, qonaqlar uşaqlarla görüşüb, onlara hədiyyələr təqdim ediblər.

Ümumtəhsil məktəbində onlar "Qurma" adlı art-studiya ilə tanış olublar. Burada xüsusi qayğıya ehtiyacı olan uşaqların hazırladıqları xalçalar, rəsm əsərləri və tikiş nümunələri nümayiş etdirilir.

Məktəbdə, həmçinin əyləncəli proqram təşkil olunub. Uşaqlar öz əl işlərini qonaqlara hədiyyə ediblər.

# DSMF-nin keçmiş filial müdiri yeni vəzifəyə təyin olundu

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN) yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 3 saylı Şəki-Zaqatala regional filialının keçmiş müdiri Turan Əsədov yeni vəzifəyə təyin olunub.***

"Unikal"ın əldə etdiyi məlumata görə, bununla bağlı müvafiq əmr imzalanıb.

Əmrə əsasən, Əsədov Turan Nasir oğlu DSMF-nin Məişət Şəraitinin Müayinəsi üzrə Mərkəzi Filialının Muğan və Şirvan-Salyan iqtisadi rayonları üzrə maddi-məişət şəraitinin müayinəsi departamentinin müdiri vəzifəsinə təyin edilib.

Qeyd edək ki, T.Əsədov ötən ilin martında xidməti avtomobili ilə Şəki rayonundan iftardan qayıdarkən Qax rayonunun Güllük kəndindən keçən avtomobil yolunun qaranlıq hissəsində dayanan piyadanı vuraraq qəza törədib. Həmin vaxt DSMF-nin yaydığı məlumatda bildirilib ki, T.Əsədov



hadisədən dərhal sonra yaralı piyadanı xəstəxanaya çatdırsa da, həyatını xilas etmək mümkün olmayıb.

***Anar Kəlbiyev***

# DİN və AQTA birgə əməliyyat keçirdi - 120 kq yararsız ət aşkarlandı

***Qida Təhlükəsizliyi Agentliyinin Qarabağ regional bölməsinin müfəttişləri Daxili İşlər Nazirliyinin Füzuli RPŞ-nin əməkdaşları ilə birgə Füzuli rayonu, Alxanlı postunda Qurbanov Yavər Tapdıq oğluna məxsus 10 FS 804 dövlət qeydiyyat nişanlı "Gaz 031-02" markalı avtomobilə baxış keçirib.***

AQTA-dan "Unikal"a verilən xəbərə görə, yoxlama zamanı avtomobilin yükdaşıma hissəsində ümumi çəkisi 120 kq is-




tehlaka yararsız iribuynuzlu heyvan əti aşkarlanıb. Ətdən kəskin qoxu gəldiyi və rənginin tündləşdiyi, antisanitar şəraitdə və temperatur rejiminə əməl edilmədən daşındığı, həmçinin baytarlıq-sanitariya ekspertizasından keçirilmədiyi müəyyən edilib.

Vətəndaş izahatında ətin özünə məxsus olduğunu, iribuynuzlu heyvanı tələf olduğu üçün Xocavənd rayonu, Qırmızı Bazar ərazisində kəsdiyini və Beyləqan rayonuna aparmaq istədiyini bildirib.

Faktla bağlı qanunvericiliyin tələblərinə uyğun müvafiq tədbirlər görülüb, ətlər soyuducu anbarda saxlanca yerləşdirilib, laborator nümunə götürülüb.

Araşdırmalar davam etdirilir.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5"
Tel./Fax:(012) 561-65-53

Qazet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Ölkədən qaçan gömrükçülər Ukraynada tutularaq Azərbaycana gətirildi

***Xəbər verdiyimiz kimi, Baş Prokurorluq yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi Dövlət Gömrük Komitəsinin bir qrup yüksək vəzifəli əməkdaşlarını həbs edib.***

Hövsan Dəniz Gömrük Postunda külli miqdarda qanunsuz siqaret yüklərinin aşkarlanması ilə əlaqədar həbslər başladıqdan sonra DGK-nın iki əməkdaşı Dəniz Nəqliyyatı və Enerji Resursları Baş Gömrük İdarəsinin Əməliyyat və təhqiqat İdarəsinin Əməliyyat şöbəsinin baş əməliyyat müvəkkili, gömrük xidmət mayoru Ənvər Həsən oğlu Tağıyev və həmin Baş İdarənin Bakı-Hövsan Beynəlxalq Ticarət Dəniz Limanın gömrük postunun inspektoru, gömrük xidməti mayoru Tahir Zöhrab oğlu Tahiri ölkəni tərk etmişdi. Həmin şəxslər məsuliyyətdən yayınmaq üçün İrana oradan isə Ukraynaya qaçmışdılar.

"Unikal"ın əldə etdiyi məlumata görə, adıçəkilən iki gömrük əməkdaşı Ukraynada tutularaq Azərbaycana gətirilib.

Əldə etdiyimiz digər məlumata görə, 6 ay keçməsinə baxmayaraq ölkədən qaçan 2 gömrükçü 26 may 2026-cı ildə komitə sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırovun müfəqi əmri ilə vəzifələrindən azad olunublar.

Xatırladaq ki, Hövsan Dəniz Gömrük Postunda külli miqdarda qanunsuz siqaret yüklərinin aşkarlanması ilə əlaqədar Dövlət Gömrük Komitəsinin Dəniz Nəqliyyatı və Enerji Resursları Baş Gömrük İdarəsinin Hövsan Məntəqəsinin rəisi Fərid Usubov, Bakı-Hövsan Beynəlxalq Ticarət Dəniz Limanının rəisi Rəşad Daşdəmirov, İdarənin əməkdaşları Heydər Eyvazov və Tamerlan Axundzadə həbs ediliblər.

Fərid Usubov, uzun illər Xüsusi Dövlət Mühafizə Xidməti rəisinin müavini işləmiş general-leytenant Cəbrayıl Usubovun oğludur.

Ona qarşı 206.4. (Qaçaqmalçılıq, mütəşəkkil dəstə tərəfindən törədildikdə, 213-1.2.2, 213-1.2.3-ci (Aksiz markası ilə markalanmalı olan malları belə marka olmadan və məcburi nişanlama ilə nişanlanmalı olan malları nişanlanmadan satma, satış məqsədilə saxlama, istehsal binasının hüdudlarından kənara çıxarma və ya idxal etmə, habelə belə malların nağd qaydada alqı-satqısı təkrar törədildikdə), 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə) ittiham elan olunub.

20_27 IYUl-QARA.qxd 6/4/2026 10:43 PM Page 6



# YAP gənc fəallarla görüş keçirdi



***Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı və partiyanın Gəncə şəhər təşkilatının birgə təşkilatçılığı ilə Göygöl rayonunda yerləşən Yaylaq düşərgəsində keçirilən "Heydər Əliyev məktəbi" layihəsinin üçüncü günündə gənc fəallarla "Milli kimliyin formalaşmasında mənəvi dəyərlərin rolu" mövzusunda görüş keçirilib.***

"Unikal" xəbər verir ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Görüşdə çıxış edən YAP İdarə Heyətinin üzvləri, Milli Məclisin deputatları Mübariz Qurbanlı və Hikmət Babaoğlu, YAP Təftiş Komissiyasının üzvü, Milli Məclisin deputatı Vüqar İskəndərov "Heydər Əliyev Məktəbi" layihəsinin əhəmiyyətindən danışıblar. Bildirilib ki, milli-mənəvi dəyərlər xalqımızın əsrlər boyu formalaşan milli kimliyinin qorunması və inkişaf etdirilməsində mühüm rol oynayır. Qeyd olunub ki, Azərbaycan xalqının milli kimliyi dilimiz, adət-ənənələrimiz, ailə dəyərlərimiz, böyüyə hörmət və kiçiyə qayğı kimi xüsusiyyətlər üzərində formalaşıb və nəsildən-nəslə ötürülüb.

Çıxışlarda vurğulanıb ki, qloballaşma şəraitində gənclər üçün yeni imkanlar yaransa da, milli kimliyin qorunması məsələsi daha da aktuallaşır. İnformasiya axınının sürətlə artdığı müasir dövrdə gənclərin öz milli köklərinə bağlı qalması, tarixi və mədəni irsini dərindən öyrənməsi xüsusi əhəmiyyət kəsb edir. Mənəvi dəyərlər insanın şəxsiyyət kimi formalaşmasında, vətənə bağlılığının güclənməsində və vətəndaş məsuliyyətinin inkişafında mühüm rol oynayır.

Tədbirdə Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin qorunması, milli kimliyinin möhkəmləndirilməsi və dövlətçilik ənənələrinin inkişaf etdirilməsi istiqamətində gördüyü mühüm işlərdən bəhs olunub. Qeyd edilib ki, Ulu Öndərin rəhbərliyi dövründə Azərbaycan dili, milli mədəniyyət, ədəbiyyat və tarixi irs dövlət qayğısı ilə əhatə olunub, azərbaycançılıq ideologiyası isə milli birliyin əsas sütunlarından birinə çevrilib.

Heydər Əliyevin əsasını qoyduğu siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının təşəbbüsü ilə tarixi və mədəni abidələrin bərpası, Azərbaycan dilinin inkişafı və milli-mədəni irsin beynəlxalq səviyyədə tanıdılması istiqamətində mühüm layihələr həyata keçirilir. Eyni zamanda, gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi və milli kimliyə bağlılığının gücləndirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi qeyd olunub.

Vurğulanıb ki, mənəvi dəyərlər yalnız milli ənənələrin qorunması ilə məhdudlaşmır. Ədalət, dürüstlük, məsuliyyət, elm və biliyə hörmət kimi keyfiyyətlər cəmiyyətin inkişaf səviyyəsini müəyyən edən əsas amillərdəndir. Xüsusilə gənclərin milli kimliyinin formalaşmasında təhsilin roluna diqqət çəkən natiqlər bildiriblər ki, təhsil yalnız bilik vermir, həm də insanın mənəvi dünyasını zənginləşdirir, onun milli-mədəni irsə münasibətini formalaşdırır.

Qeyd olunub ki, mənəvi dəyərlər cəmiyyətin mənəvi təhlükəsizliyinin təmin olunmasında da mühüm rol oynayır. Milli kimliyin qorunması isə dövlətin, ailənin, təhsil müəssisələrinin və bütövlükdə cəmiyyətin ortaq məsuliyyətidir.

Layihə iştirakçıları Nigar Məmmədova, Qədir Məmmədov, Pəri Muradlı, Nuranə Rzayeva, Rəşad Məhərrəmov və digərləri mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Daha sonra layihə iştirakçıları üçün "Mənim xəyalımdakı ağıllı kənd" mövzusunda Yaradıcılıq Atelyesi (Workshop) müsabiqəsi təşkil olunub. Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AzMİU) Dizayn fakültəsinin dekanı, dosent Fərid Kərimovun moderatorluğu ilə keçirilən müsabiqədə gənclər dörd komanda şəklində iştirak edərək gələcəyin yaşayış məskənləri öz baxışları əsasında dizayn ediblər.

Təqdimatlardan sonra müsabiqənin nəticələri açıqlanıb və "Şirvanşahlar sarayı" komandası qalib elan edilib.

Daha sonra YAP İdarə Heyətinin üzvü, partiyanın Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov və YAP Mərkəzi Aparatının Təşkilat şöbəsinin baş məsləhətçisi Araz Salmanov gənclərlə fikir mübadiləsi aparıblar. Görüşdə gənclərin layihə ilə bağlı fikirləri dinlənilib, iştirakçılar tərəfindən təkliflər səsləndirilib. Bu kimi tədbirlərin gənclər arasında ünsiyyətin genişlənməsinə və onların mədəni istirahətinin səmərəli təşkilinə töhfə verdiyi xüsusi vurğulanıb.

# "DTX-da Kibertəhqiqat istiqaməti fəaliyyətə başlayıb" - Mərkəz rəisi



***Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) xüsusi xidmət orqanları ilə böyük şəbəkəsi var. Dünyanın 160 milli kibertəhlükəsizlik mərkəzləri ilə əlaqə nöqtəmiz mövcuddur. Budapeşt Konvensiyası çərçivəsində 24/7 əlaqə kanalımız var və biz kibercinayətkarlığın araşdırılması istiqamətində tədbirlər görürük.***

"Unikal" xəbər verir ki, bunu DTX-nin Milli Kibertəhlükəsizlik Mərkəzinin rəisi Davud Rüstəmov Dövlət Təhlükəsizliyi Xidmətinin Milli Kibertəhlükəsizlik Mərkəzinin əsas tərəfdaşlığı ilə Azərbaycan Kibertəhlükəsizlik Təşkilatları Assosiasiyası tərəfindən Bakıda keçirilən "4-cü Milli Kibertəhlükəsizlik Forumu"nda çıxışı zamanı deyib.

D.Rüstəmov fikirlərinə belə davam edib: "Eyni zamanda, BMT-nin yeni qəbul olunmuş və Azərbaycanın ilk ratifikasiya etdiyi beynəlxalq sənədin - Kibercinayətkarlığa qarşı Konvensiyanın üzərində də işlər gedir. Bununla yanaşı, DTX-də Kibertəhqiqat istiqaməti fəaliyyətə başlayıb. Kibertəhqiqatın təhqiqat və kibertədqiqat hissələri tandemdə çalışacaq. Bu fəaliyyət nəticəsində xüsusilə APT kimi ciddi kibertəhdidlərə qarşı mübarizədə ciddi irəliləyişlər əldə olunmasını hədəfləmişik".

# Azərbaycandan tranzit keçməklə Rusiyadan Ermənistana buğda, arpa və gübrə göndərilib

***Azərbaycandan tranzit keçməklə Rusiyadan Ermənistana növbəti tədarük həyata keçirilib.***

3 vaqondan ibarət, çəkisi 210 ton olan buğda və 2 vaqondan ibarət, çəkisi 140 ton olan arpa və 1 vaqondan ibarət, çəkisi 69 ton olan gübrə Biləcəri stansiyasından Böyük Kəsik istiqamətinə göndərilib.

Qeyd edək ki, indiyədək Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 29 min tondan çox taxıl, 6 min tondan çox gübrə, 133 ton alüminium və 68 ton qarabaşaq göndərilib.

Xatırladaq ki, tranzitlə yanaşı, Azərbaycandan Ermənistana neft məhsulları da ixrac olunur. İndiyədək Azərbaycandan Ermənistana 10 min tondan çox dizel, 979 ton Aİ-92 benzini və 2955 ton Aİ-95 benzini ixrac olunub.

# Qanuni tələbə məhəl qoymayan sərhəd pozucusuna silah tətbiq edildi

***Ötən ay dövlət sərhədində 1 halda narkotiklərin pilotsuz uçuş aparatı vasitəsilə ölkə ərazisinə keçirilməsinin qarşısı alınıb.***

Bu barədə "Unikal"a Dövlət Sərhəd Xidmətindən məlumat verilib.

Bildirilib ki, sərhədçilərin qanuni tələblərinə məhəl qoymayan sərhəd pozucusuna qarşı "Dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq silah tətbiq olunub. Yaralıya ilkin tibbi yardım göstərilərək ixtisaslaşmış tibb müəssisəsinə təxliyəsi təmin edilib, lakin həkimlərin səyinə baxmayaraq həyatını xilas etmək mümkün olmayıb.

# Dövlət qulluğu imtahanlarında iştirak edəcək namizədlərin sayı açıqlanıb



***Dövlət İmtahan Mərkəzi (DİM) iyunun 7-də inzibati rəhbər vəzifələrə aid AB, AC və inzibati icraçı vəzifələrə aid BA, BB vəzifə altqruplarına uyğun vəzifələr üzrə dövlət qulluğunda fəaliyyətin davam etdirilməsi imtahanı və dövlət qulluğunda inzibati vəzifələrin B növünə aid BB vəzifə altqrupuna uyğun vəzifələr üzrə qəbul imtahanı keçirəcək.***

DİM-dən "Unikal"a bildirilib ki, BB vəzifə altqrupu üzrə test imtahanında iştirak etmək üçün 1389 namizəd qeydiyyatdan keçib. Fəaliyyətin davam etdirilməsi üzrə imtahanda iştirak etmək üçün AB qrupu üzrə 8, AC qrupu üzrə 15, BA qrupu üzrə 73, BB qrupu üzrə isə 179 olmaqla, ümumilikdə 275 namizəd qeydiyyatdan keçib.

Namizədlər imtahana gələrkən şəxsiyyətini təsdiq edən sənədin əslini və "İmtahana buraxılış vərəqəsi"ni mütləq gətirməlidirlər. Buraxılış vərəqəsində imtahana gəlməli olan vaxt və digər zəruri məlumatlar göstərilib.

İmtahanların keçirilməsi üçün 18 zal admini, 108 nəzarətçi və 16 buraxılış rejimi əməkdaşı ayrılıb.

# Azərbaycandan Ermənistana 2500 tona yaxın dizel yanacağı göndərildi

***Azərbaycandan Ermənistana göndərilən 2 475 ton dizel yanacağı "Azərbaycan Dəmir Yolları" QSC-nin Güzdək stansiyasından yola salınıb.***

"Unikal" xəbər verir ki, 42 vaqon dizel yanacağı Böyük Kəsik stansiyası istiqamətində yola düşüb.

Yük Gürcüstan ərazisindən tranzit keçməklə Ermənistana çatdırılacaq.

Xatırladaq ki, bu ölkəyə yanacaq ixracına isə 2025-ci dekabrın 18-də başlanılıb. Həmin gün Ermənistana 1 220 ton Aİ-95 markalı avtomobil yanacağı tədarük edilib.

Prezident İlham Əliyevin 2025-ci ilin oktyabrında verdiyi qərara əsasən, işğal dövründən bəri qüvvədə olan Azərbaycandan Ermənistana yüklərin tranziti ilə bağlı məhdudiyyətlər aradan qaldırıldıqdan sonra bu istiqamətdə daşımalar davam edir.



# 300 mindən çox şagird monitorinq ediləcək

***İyunun 5-də Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi və Təhsil İnstitutu tərəfindən IV siniflər, 6 iyun tarixində isə VI siniflər olmaqla ölkə üzrə bütün dövlət ümumi təhsil müəssisələrində monitorinq təşkil olunacaq.***

"Unikal" Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə istinadən xəbər verir ki, təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi məqsədilə ölkə üzrə ümumilikdə 300 mindən çox 4-cü və 6-cı sinif şagirdləri arasında monitorinq həyata keçiriləcək. Ümumilikdə 13 552 şagirdin kompüter əsaslı monitorinqdə iştirakı nəzərdə tutulur.

Bu il ilk dəfə olaraq monitorinq tapşırıqlarına açıq tipli suallar daxil ediləcək.

Qeyd edək ki, IV siniflərdə monitorinq tədris dili və riyaziyyat fənləri, VI siniflərdə isə monitorinq tədris dili, təbiət və riyaziyyat fənləri üzrə aparılacaq.

IV sinif şagirdlərinə tədris dili fənni üzrə 28 qapalı, 2 açıq yazılı sual, riyaziyyat fənni üzrə isə 25 qapalı, 3 həlli tələb olunmayan açıq kodlaşan və 2 həlli tələb olunan açıq yazılı sual, VI sinif şagirdlərinə tədris dili fənni üzrə 23 qapalı, 2 açıq yazılı sual, təbiət fənni üzrə 25 qapalı sual, riyaziyyat fənni üzrə 20 qapalı, 3 həlli tələb olunmayan açıq kodlaşan və 2 həlli tələb olunan açıq yazılı sual təqdim olunacaq. IV siniflərə sualların cavablandırılması üçün 150 dəqiqə, VI siniflərə sualların cavablandırılması üçün 180 dəqiqə vaxt veriləcək. Monitorinq nəticələri şagirdlərin summativ qiymətləndirmə ballarına, eləcə də onların sinifdənsinfə keçmələrinə təsir göstərmir.

# Təkrar ali və orta ixtisas təhsili üzrə sənəd qəbulu başladı

***Əlavə təhsilin "Təkrar ali və orta ixtisas təhsili" istiqaməti üzrə sənəd qəbulu prosesinə start verilib.***



"Unikal" xəbər verir ki, bu barədə Elm və Təhsil Nazirliyi məlumat yayıb.

Məlumata görə, Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sisteminə qoşulmuş ali təhsil müəssisələrinə müraciət etmək istəyənlər portal.edu.az vasitəsilə sənədlərini elektron formada təqdim edə bilərlər.

Sənəd qəbulu prosesi 31 avqust 2026-cı il saat 23:59-da başa çatacaq. Qeyd edək ki, təkrar təhsil hüququ əvvəlki təhsil səviyyəsinə uyğun müəyyən edilir. Qəbul təhsil müəssisələrinin müvafiq tədris ili üçün təsdiq olunmuş qəbul planına uyğun ixtisaslar və təhsilalma formaları üzrə həyata keçirilir.

Bundan başqa, təhsil müddəti əvvəlki və yeni təhsil proqramları arasındakı fərq nəzərə alınmaqla hesablanır. Təhsil yalnız ödənişli əsaslarla həyata keçirilir, təhsil haqqı isə müddətə uyğun olaraq müəssisə tərəfindən müəyyən edilir.

# "Dəyişikliklər mərhələli şəkildə olmalıdır"

## Siyavuş Novruzov: "Gələcəkdə əgər referendum keçirilərsə, konstitusiyada dəyişikliklər olarsa, bu və digər məsələlərə də baxıla bilər"



***"Dövlət qulluğu haqqında" qanuna təklif olunan dəyişikliyə əsasən, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi artıq 1-ci kateqoriya dövlət orqanı statusuna malik olacaq. Təklif edilən digər dəyişikliklərə əsasən, Naxçıvanda Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəsi və onun müavinləri vəzifələri inzibati vəzifələr təsnifatından çıxarılır, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin köməkçisi vəzifəsi isə üçüncü təsnifat vəzifələr siyahısına daxil edilir. Milli Məclisin Regional məsələlər komitəsinin sədri, deputat Siyavuş Novruzov bu və digər mövzularla bağlı "Unikal"a müsahibə verib.***

***-Siyavuş müəllim, Naxçıvanda Prezidentin səlahiyyətli nümayəndəliyinin statusunun dəyişməsi ilə bağlı təklifi necə qiymətləndirirsiz?***

-Məlum olduğu kimi, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına dəyişikliklər olunub. Həmin dəyişikliklər artıq qüvvəyə minib. Bunun nəticəsi olaraq səlahiyyətli nümayəndənin fəaliyyətinin istiqamətləri də müəyyən olunur. Səlahiyyətli nümayəndə statusu həm işğaldan azad olunmuş ərazilərimizdə, həm də Naxçıvan Muxtar Respublikasında yeni statusdur. Bu, "Dövlə qulluğu haqqında" qanunun tələbləridir. Dövlət qulluğuna aid olan statuslar ora da daxil ediləcək. Bu proseslər gedir və vaxtaşırı müvafiq dəyişikliklər olunur. Bunlar bilavasitə cənab Prezidentin səlahiyyətləri çərçivəsindədir.

***-Naxçıvanda Prezidentin səlahiyyətli nümayəndəliyinin statusu dəyişir. Həmçinin, işğaldan azad edilən rayonlara xüsusi nümayəndələr təyin edilib. Bir neçə dəfə icra hakimiyyətlərinin ləğv olunacağı və onları səlahiyyətli nümayəndələrin əvəz edəcəyi ilə bağlı fikirlər səsləndirilib. İcra hakimiyyətlərinin ləğvinə gəlincə, bunun üçün konstitusiya dəyişdirilməli, yəni referendum keçirilməlidirmi. Sizcə, icra hakimiyyətləri ləğv olunacaqmı?***

-Ümumiyyətlə, regional idarəetmə ilə bağlı müxtəlif təkliflər var. Bildiyiniz kimi, regional idarəetmənin əsasən 3 forması mövcuddur. Yerli icra hakimiyyətləri, bələdiyyələr və səlahiyyətli nümayəndələr. Regional idarəetmə ilə əlaqədar təkliflər hazırlanır, həmin təkliflər bizə də göndərilir. Hesab edirəm ki, gələcəkdə əgər referendum keçirilərsə, konstitusiyada dəyişikliklər olunarsa, bu və digər məsələlərə də baxıla bilər. Bunların hamısı konstitusiyada nəzərdə tutulub. Həm rayon-şəhər icra hakimiyyətlərinin, həm bələdiyyələrin statusu ilə bağlı və digər məsələlər nəzərə alınıb. Gələcəkdə konstitusiyada hər hansı bir dəyişiklik olunacaqsa, referendum keçiriləcəksə, o zaman bu məsələdən danışmaq olar.

***-Siz də qeyd etdiniz ki, Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına təklif edilən dəyişikliklər təsdiqlənib. Bu məsələ Milli Məclisdə müzakirə olunan zaman deputatlar tərəfindən Naxçıvanda muxtariyyətin ləğvi məsələsi barədə düşünməyin lazım olduğu bildirildi. Naxçıvanın muxtariyyət statusu ləğv oluna bilərmi?***

-Bu məsələ də konstitusiyanın səlahiyyətləri çərçivəsindədir. Gələcəkdə bununla bağlı hər hansı təkliflər olunacaqsa, o zaman baxılacaq. Bu məsələ yalnız referendum yolu ilə öz həllini tapa bilər.

***- Zəngəzur dəhlizinin Azərbaycan ərazisində işlər tamamlanmaq üzrədir, Ermənistan ərazisindən keçən hissəsi isə cəmi 40 kilometrdir. Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikasına, oradan isə Türkiyəyə bağlayacaq bu yolun əhəmiyyəti çox böyükdür. Zəngəzur dəhlizinin nə zaman istifadəyə veriləcəyini düşünürsüz?***

-Prezident İlham Əliyevin 31-ci "Baku Energy Forum"nun rəsmi açılış mərasimində çıxışı zamanı Zəngəzur dəhlizinin tezliklə açılması və orada işlərin aparılması ilə bağlı fikirləri səsləndirildi. Hesab edirəm ki, ötən il avqustun 8-də ABŞ-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyanın təsdiqlədiyi sənədlərə əsasən Zəngəzur dəhlizinin açılması zəruridir. Bu, demək olar ki, Şərqlə-Qərbi, Mərkəzi Asiya ilə Avropanı birləşdirən vacib dəhlizdir. Bu dəhlizdən kifayət qədər ətraf ölkələr istifadə edəcək. Çindən başlayaraq Avropaya qədər yüklərin daşınmasına bir neçə dəfə daha qısa müddətdə şərait yaradacaq. Azərbaycan üçün kifayət qədər strateji yoldur. O cümlədən Ermənistan bu yol vasitəsilə həm Avropaya, həm də Asiyaya qoşula biləcək. Güman edirəm ki, digər ölkələr də burada yaxından iştirak edəcəklər. Mərkəzi Asiya ölkələri və digər ölkələr də bu yoldan istifadə edə biləcəklər. Bu, XXI əsrin ən vacib və strateji xətlərindən biri olacaq.

***-Bu yaxınlarda Qubanın üç kəndinin adı dəyişdirilib. Yəqin ki, davamlı olaraq sizin komitəyə kənd adlarının dəyişdirilməsi ilə bağlı müraciətlər daxil olur. Kənd adlarının dəyişdirilməsi bundan sonra da davam edəcəkmi?***

-Kənd adlarının dəyişdirilməsi ilə bağlı bizim komitəyə təkliflər daxil olur. Müxtəlif rayonlardan, deputat həmkarlarımız tərəfindən müraciətlər olunur. Həmçinin, yerlərdə seçicilər tərəfindən onlara müraciətlər edirlər. Sovet dövründən qalma adlar olur. Bəzi kökü bəlli olmayan kənd adları mövcuddur. Bunların dəyişdirilməsi mərhələli şəkildə olunur. Dəyişikliklərin hər biri çox genişdir. Belə ki, bunlar tək söz dəyişikliyindən ibarət olmur. Orada yaşayan sakinlərin şəxsiyyət vəsiqəsində və bir neçə sənədində bu dəyişikliklər getməlidir. Bu məsələ tək kəndin adının dəyişməsi ilə yekunlaşmır. Orada bir çox məsələlər var. Kəndin adı dəyişdikdən sonra sənədlərin hamısında dəyişiklik olur. Bu baxımdan belə dəyişikliklər mərhələli şəkildə olmalıdır.

***Anar Kəlbiyev***

# Azərbaycan turizmində yeni böhran

## Xaricdən gələn turistlərin sayında kəskin azalma var - Bəs ölkə kənarında təbliğata xərclənən milyonlarla manat hara gedir?

***Yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, cari ilin əvvəlindən etibarən Azərbaycana gələn turistlərin sayında kəskin azalma müşahidə olunur. Belə ki, rəsmi statistikaya əsasən, 2026-cı ilin ilk 4 ayında Azərbaycana 658.5 min turist gəlib. Bu isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 10.5 faiz azalma deməkdir.***

İqtisadçı deputat Vüqar Bayramov mövzu ilə bağlı deyib ki, Azərbaycana gələn turistlərin sayının azalmasının bir sıra obyektiv səbəbləri olsa da ənənəvi faktorlar da qalmaqdadır. Məsələ burasındadır ki, ölkəyə gələn turistlərin mənşə ölkə strukturundakı çağırışlar ümumi gələnlərin sayına təsir göstərir. Sitat: “Doğrudur, hələ də Azərbaycana gələn turistlərin təxminən yarısı iki ölkənin payına düşür. Həmin müddətdə Azərbaycana gələn hər 100 nəfərin 27-si Rusiya, 22-si isə Türkiyə vətəndaşları olublar. Bununla yanaşı, əvvəlki ilin ilk dörd ayında Azərbaycana gələn turistlərin 11 faizi Hindistanın payına düşürdüsə, indi bu göstərici üç faizədək azalıb. Deməli, gəlmə turizm bazarlarının şaxələndirilməsi və dayanıqlığının gücləndirilməsi prioritet olaraq qalmaqdadır.

İran müharibəsinin region ölkələrinə gələn turistlərin sayına təsirlərinə gəldikdə isə sözügedən müddətdə münaqişə Azərbaycan və Gürcüstana üz tutan turistlərin statistikasında özünü göstərib. Belə ki, Gürcüstana gələn turistlərin sayı bu ilin ilk rübündə 4 faiz artmışdısa, ilk 4 ayda cüzi olsa da azalma qeydə alınıb. Bu da birbaşa İrandan gələn turistlərin sayının 49 faiz azalması ilə bağlıdır. Həmin müddətdə qonşu ölkəyə Hindistandan gələn turistlərin sayında da 29.5 faiz azalma qeydə alınıb”.

Vüqar Bayramov həmçinin hesabat dövründə Azərbaycana Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayının 17.1 faiz, MDB ölkələrindən gələnlərin sayı 3.5 faiz artsa da, körfəz ölkələrindən gələnlərin sayı 27.8 faiz azaldığını deyib: ”Ərəb dövlətlərindən gələnlərin sayının azalmasına ümumi faktorlar ilə yanaşı, regiondakı müharibə də xüsusi təsir göstərib.

Bütün bunlarla yanaşı, turizm sektorunda struktur və institusional islahatların daha da dərinləşdirilməsi prioritetdir. Turizm neftdən sonra Azərbaycana ən çox valyuta gətirən sektordur. Pandemiyadan öncə illik turizm gəlirləri 2.7 milyard dollara yaxın idi. Bu sektor həmçinin məşğulluğa da xüsusi töhfə verir. Bu baxımdan, turizm infrastrukturunun daha da inkişaf etdirilməsi və qiymətlərin optimallaşdırılması Azərbaycana daha çox turistin gəlməsinə imkan yarada bilər. Monitorinqlər göstərir ki, nəinki Bakıda, hətta bölgələrdə də turizm xidmətlərinin qiymətləri yüksək olaraq qalmaqdadır. Bu da həm daxili, həm də gəlmə turizmin inkişafına təsirsiz ötüşmür”.

Göründüyü kimi, Azərbaycan turizmində illərdir həllini tapmayan problemlər bu sektorda köklü dönüşün baş verməsini əngəlləyir; nəticədə dövlət hər il yüz milyonlarla manat gəlirdən məhrum olur. Söhbət Bayramovun və digər bir çox ekspertin də vurğuladığı kimi, qiymətlərin bahalı, xidmət keyfiyyətinin isə bu yüksək qiymətlərə adekvat olmaması, infrastrukturun genişləndirilməsi və yaxşılaşdırılması kimi amillərdən gedir.

Daha bir maraqlı məqam: Dövlət Turizm Agentliyi (DTA) Azərbaycanın turizm imkanlarının ölkədən kənardakı təbliğatına ilboyu milyonlarla manat xərcləyir. Lakin cari ilin ilk dörd ayı ilə bağlı statistikadan da göründüyü kimi həmin təbliğatın effektiv nəticələrindən danışmaq mümkün deyil. Bu isə bir daha təsdiqləyir ki, effektiv nəticə illər uzunudur ölkə turizmində yığılıb qalan problemlərin həlli istiqamətində əməli fəaliyyətə keçirilməsi, təsirli addımlar atılması vacibdir. Hər il yayın gəlişi ilə sosial şəbəkələrdən tutmuş ənənəvi mediayadək əsas müzakirələrdən biri bölgələrdəki turizm obyektlərində hökm edən fantastik qiymətlər və müştərilərə xidmətin həmin qiymətlərlə qətiyyən üst-üstə düşməyən keyfiyyətidirsə, ölkədən kənarda reklam xarakterli verilişlər yayımlamağın bir mənası qalmır.



Turizm ekspertləri illərdir eyni həqiqətləri təkrarlayırlar; onlar təsdiqləyirlər ki, bu sahədə gedişat heç də ürəkaçan deyil - müştərilər qiymətlərin baha olmasından, xidmət səviyyəsinin isə qiymətlərə uyğun gəlməməsindən narazıdır; hətta elə obyektlər var ki, normal xidmət belə göstərə bilmir; bəzən antisanitar vəziyyətlərlə rastlaşmaq mümkündür. Bunlar tez- tez rast gəlinən və müştərilərin narazılığına səbəb olan məsələdir.

Digər tərəfdən, hazırda Azərbaycanda yeddi yüzə yaxın hotel və mehmanxana var. Otaq fondumuz təxminən 27 min, yataq sayı isə təxminən 60 mindir. Mütəxəssislər bildirirlər ki, bu, elə də böyük rəqəm deyil və əsasən yay mövsümündə yerlər dolur, mövcud tələbatı qarşılamaq üçün kifayət etmir. Nəticədə qiymətlər kələ-çarxa çıxır.

Mövcud vəziyyəti dəyişməyin yolu isə sadədir: turizm sektorundakı baryerlər aradan qaldırılmalı, bu sahəyə məmurların qanunsuz müdaxiləsi, şəxsi biznes prizmasından yanaşması ən azından minimallaşdırılmalı, sağlam rəqabətin önü açılmalı, bu sahəyə investisiya qoyuluşunu artırmaq üçün güvənli sahibkarlıq mühiti genişləndirilməlidir. Əks halda illərdir davam edən problemlərə əncam çəkilməsi real görünmür.

***Sənan Mirzə***



# Mehriban Abasquliyeva məhkəmə zalında həbs edildi

***Respublika Perinatal Mərkəzində 7 körpənin ölümünə səbəb olan yanğınla bağlı məhkəmə araşdırması başa çatıb.***

“Unikal” xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hökm oxunub.

Leyla Əsgərova-Məmmədovanın sədrlik etdiyi məhkəmə kollegiyası yekunda nəticəyə gəlib ki, təqsirləndirilən şəxslərə verilmiş ittihamlar əsaslıdır, çoxsaylı dəlil-sübutlar, həmçinin şahid ifadələri ilə təsdiqini tapıb.

Hökmə əsasən, Perinetal Mərkəzin rəhbəri olmuş Mehriban Abasquliyeva 7 il 3 ay müddətinə azadlıqdan məhrum olunub. Mehriban Abasquliyeva elə məhkəmə zalında həbs edilib.

Eyni zamanda digər təqsirləndirilənlər - Anesteziologiya, reanimasiya və intensiv terapeya şöbəsinin müdiri Hamlet Mustafayev 5 il 8 ay, Dəstək xidmətləri şöbəsinin müdiri Elnur Əhmədli 5 il 2 ay müddətinə azadlıqdan məhrum edilməklə məhkəmə zalından həbs olunublar.

Xatırladaq ki, Respublika Perinatal Mərkəzindəki yanğın 2024-cü ilin yanvarında baş verib. Hadisə ilə bağlı Baş Prokurorluğun İstintaq İdarəsində ibtidai istintaq aparılıb. Toplanmış sübutlar əsasında Mərkəzin direktoru M.Abasquliyeva, Anesteziologiya, reanimasiya və intensiv terapiya şöbəsinin müdiri Hamlet Mustafayev və Dəstək Xidmətləri şöbəsinin müdiri Elnur Əhmədli cinayət məsuliyyətinə cəlb edilib. Onlara qarşı Cinayət Məcəlləsinin 308.2 (ağır nəticələrə səbəb olan vəzifə səlahiyyətlərindən sui-istifadə) və 225.3-cü (yanğın təhlükəsizliyi qaydalarını pozma ehtiyatsızlıqdan iki və daha çox şəxsin ölümünə səbəb olduqda) maddələri ilə yekun ittiham verilib.

***Orxan Rasifoğlu***

# Nazir müavini ətin qiymətindan danışdı

***Azərbaycanda ət bazarında qiymətlərin sabitləşməsi istehsalın artırılması və maya dəyərinin azaldılması hesabına təmin olunacağı gözlənilir.***



”Unikal” xəbər verir ki, bunu Kənd Təsərrüfatı Nazirliyində keçirilən mətbuat konfransında kənd təsərrüfatı nazirinin müavini Zaur Əliyev deyib.

Nazir müavini bildirib ki, əsas məqsəd ət istehsalını artırmaq, məhsuldarlığı yüksəltmək və istehsal xərclərini azaltmaqdır.

”Ət istehsalının maya dəyərinin uyğun səviyyədə formalaşdırılması hesabına bazarda sabitlik yaranacağını düşünürük”, - deyə Zaur Əliyev qeyd edib.

Onun sözlərinə görə, hazırda Azərbaycanın mal ətinə tələbatının 83,7%-i, qoyun ətinə tələbatının 94,2%-i, quş ətinə tələbatının isə 82%-i yerli istehsal hesabına ödənilir.

***Anar Kəlbiyev***

20_27 IYUl-QARA.qxd 6/4/2026 10:43 PM Page 9





## Qanunsuz məqsədlə verilən pul geri qaytarılmır - Ali Məhkəmədən xəbərdarlıq

***Məhkəmə praktikasından görünür ki, bəzən şəxslər hər hansı qanunsuz nəticə əldə etmək məqsədilə kiməsə pul və ya başqa əmlak verirlər. Vədlər yerinə yetirilmədiyi halda isə adətən mülki məhkəmədə verilmiş pulun qaytarılması barədə iddialar irəli sürülür. Lakin bir qayda olaraq həmin pulu məhkəmə qaydasında geri almaq mümkün olmur.***

"Unikal" xəbər verir ki, mülki məhkəmə icraatında hər hansı iddia tələbi üzrə hüquqi dəyərləndirmə zamanı ilk addım iddiaçının tələbinə uyğun gələn qanuni əsasın tapılmasından ibarətdir. Mülki hüquqda hər hansı pul tələbinin təmin edilməsi üçün həmin tələb müqavilədən, zərər vurulmasından, əsassız varlanmadan və ya qanunda nəzərdə tutulmuş digər əsaslardan yaranmalıdır.

Qanunsuz məqsədlə verilmiş pullar isə heç bir qanuni əsasa söykənmir. Hüquq sistemi yalnız qanuni münasibətləri qoruyur. Əgər pul qanunsuz məqsədlə verilibsə, həmin münasibət artıq hüququn müdafiə etdiyi mülki hüquqi münasibət sayılmır.

Məhkəmələr bu kateqoriya işlər üzrə ilk növbədə pulun hansı məqsədlə verildiyini araşdırırlar. Çünki hüquqi müdafiədən istifadə etmək üçün münasibətin özü əvvəlcədən qanuni və legitim əsaslara söykənməlidir. Müəyyən olunursa ki, tərəflər qanunazidd nəticə əldə etmək niyyəti ilə hərəkət ediblər, bu halda iddia təmin edilmir.

Bundan əlavə, belə hallarda şəxslər yalnız pulu itirmək riski ilə deyil, əlavə neqativ hüquqi nəticələrlə də üzləşə bilərlər. İş materiallarından qanun pozuntusunun əlamətləri göründükdə, məhkəmələr tərəfindən xüsusi qərardad qəbul edilərək, materiallar prosessual qiymət verilməsi üçün prokurorluq orqanlarına göndərilə bilər.

Bu risklərlə üzləşməmək üçün vətəndaşlara hüquqi münasibətlərini yalnız qanuni və legitim əsaslarla qurmaq və qanunsuz münasibətlərdən isə çəkinmək tövsiyə olunur.

## Kartla ödənişlərdə xidmət haqqı yeni limitlərlə hesablanır




***Ölkə daxilində kartla ödənişlərdə banklararası xidmət haqqı artıq yeni limitlər ilə hesablanır.***

"Unikal" Xəzər Tv-yə istinadən xəbər verir ki, aptek və supermarketlərdə bunun yuxarı həddi 1,25 faiz, yanacaqdoldurma məntəqələrində 0,75 faiz, digər ümumi kateqoriyalarda isə maksimum 1,5 faizdir. Bəzi fəaliyyət sahələri üzrə isə konkret yuxarı hədd tətbiq olunmayıb.

Mövzu ilə bağlı danışan iqtisadçı Xalid Kərimli deyir ki, interçeync kartla ödəniş zamanı bir bankın digər banka ödədiyi xidmət haqqıdır. Məsələn, vətəndaş bir bankın kartı ilə başqa bankın POS-terminalında alış-veriş etdikdə, banklar arasında müəyyən komissiya ödənişi həyata keçirilir. Bu ödəniş isə banklar və ticarət obyektləri arasında formalaşır.

Ekspert deyir ki, burada əsas məqsəd nağdsız ödənişlərin həcmini artırmaqdır.

Ekspert bildirib ki, sahəni Mərkəzi Bank tənzimləyir. Mərkəzi Bank burada yuxarı hədd müəyyən etməklə POS-terminal şəbəkəsinin daha da genişləndirilməsinə şərait yaratmağa çalışır.

# Cahangir Əsgərovdan "uzaqgörən" gediş

## Dövlətə məxsus olmuş bankı öncə özəlləşdirdi, sonra özününküləşdirdi...

***"Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) keçmiş prezidenti Cahangir Əsgərov "Premium Bank" ASC-dəki payını 84,47 %-dən 86,25 %-ə çatdırıb.***

Bu, "Premium Bank"ın nizamnamə kapitalının 20 milyon manat və yaxud 12,9 % artırılaraq 154,6 milyon manatdan 174,6 milyon manata çatdırılmasından sonra baş verib. Kapital artımı üçün dövriyyəyə buraxılmış yeni səhmlərin hamısını C.Əsgərov əldə edib (Report).

Son nəticədə digər səhmdarlar - "VIP Aviation Services" MMC-nin payı 15,22 %-dən 13,47 %-ə, Elvira Əhmədovanın payı isə 0,31 %-dən 0,28 %-ə düşüb.

Beləliklə, Əsgərov adıçəkilən bankı az qala tamamən öz nəzarətinə keçirib.



Xatırladaq ki, "Premium Bank" 1993-cü ildə "AZAL Bank" adı ilə yaradılıb və dövlətə məxsus olub, ancaq sonradan səhmləşdirilərək kommersiya bankına çevrilib. Bank artıq uzun müddətdir ki, tamamilə özəl sektora daxildir. Daha doğrusu, Cahangir Əsgərovun ailə biznesinin bir parçasıdır.

Bank 2008-ci ildə adını "Silk Vey Bank"a dəyişib, 2018-ci ildə isə yenidən rebrendinq edib.

Bu ilin aprelində məlum olmuşdu ki, Azərbaycanda fəaliyyət göstərən 22 bankdan 8-i ötən ilin mənfəət vergisini ödəməyib. Bu banklardan biri - "Bank BTB" zərərlə işləyib və mənfəət vergisi ödəməməsində təəccüblü heç nə yoxdur. Digərləri isə mənfəəti olan banklardır (AFB Bank, Bank Avrasiya, Bank Melli İran Bakı filialı, "Rabitəbank" və TuranBank).

Maraqlıdır ki, mənfəət ödəməyən banklar arasında "Azərbaycan Hava Yolları" QSC-nin (AZAL) sabiq rəhbəri Cahangir Əsgərovun "Premium Bank"ı da var. Halbuki bankın xalis və vergidən əvvəlki mənfəəti 9,1 milyon manat təşkil edib.

"Unikal"ın araşdırması zamanı aydınlaşıb ki, Əsgərovun bankı 2024-cü ildə 2 milyon 697 min manat mənfəət vergisi ödəyib. Bununla da 20 bank arasında 16-cı olub.

"Premium Bank"ın ötən il bir manat olsun belə səbəbi açıqlanmayıb.

Məlumat üçün deyək ki, vergi ödəyicisinin gəliri (vergidən azad edilən gəlirdən başqa) ilə gəlirdən çıxılan xərci arasındakı fərq onun mənfəətidir. Mənfəətdən ödənilən vergiyə isə mənfəət vergisi deyilir. Azərbaycanda banklar üçün mənfəət vergisinin dərəcəsi 20 faiz təşkil edir. Belədə Cahangir Əsgərovun bankı 2025-ci ildə 2 milyon manatdan çox mənfəət vergisi ödəməlidir. Lakin yuxarıda da vurğuladığımız kimi açıqlanmayan səbəbdən həmin ödəniş baş tutmayıb.

Həmin vaxt bildirilirdi ki, qanunvericiliyə əsasən, öncəki ilin mənfəət vergisinin ödənilməsi üçün son tarix martın 31-dir. Bu tarix isə artıq arxada qalıb. Aradan keçən iki ayda "Premium Bank" və digər 7 bankın mənfəət vergisini ödəyib-ödəmədiyi barədə hər hansı məlumat yoxdur.

Onu da qeyd edək ki, Cahangir Əsgərov "Premium Bank"ın əsas səhmdarına ötən ilin yazında çevrilib. Belə ki, səhmlər əvvəlcə onun həyat yoldaşı Zərifə Həmzəyevaya məxsus olub. Həmzəyeva bu il yanvarın 17-də vəfat etdikdən sonra onun bankdakı payı Əsgərova keçib.

Sabiq AZAL "şef"i ötən ilin noyabrında bankın rəhbərliyində gözlənilməz dəyişikliyə gedib. Belə ki, Fərhad Baxşəliyev "Premium Bank" ASC-nin İdarə Heyətinin yeni sədri təyin edilib. O, 2023-cü ilin dekabr ayından bankın Müşahidə Şurasının üzvü kimi fəaliyyət göstərib.

İdarə Heyətinin əvvəlki sədri Kamil Lətifov isə ötən il noyabrın 13-də gözlənilməz şəkildə işdən çıxmışdı. Bu barədə adıçəkilən bankdan bildirilmişdi. Aradan keçən müddətdə sədr vəzifəsini müvəqqəti olaraq sədr müavini Mahir Nəcəfov icra edib. O, bu ilin yanvar ayına qədər "Premium Bank"ın sədri, K.Lətifov isə sədr müavini olub. Yanvarda onların yerləri dəyişdirilib. Lakin maraqlıdır ki, Lətifov sözügedən postda heç bir il çalışmayıb və işdən çıxıb. O da maraqlı idi ki, sabiq sədrin 11 aylıq rəhbərliyi dövründə "Premium Bank" böyümüşdü. Lakin Cahangir Əsgərov nəyə görəsə bankın rəhbərliyində dəyişiklik ehtiyacı duyub.

AZAL-ın sabiq "şef"i indi isə "Premium Bank"da səhmlərin az qala hamısını əldə etmək yolunda irəliləyir və yuxarıda da vurğuladığımız kimi bu bankın tam söz sahibi rolundadır.

Xatırladaq ki, hazırda 76 yaşı olan Əsgərov 1996-2023-cü illərdə AZAL-a rəhbərlik edib. Bu dövrdə sözügedən QSC əsasən zərərlə işləyib və yüz milyonlarla manatlıq borc bataqlığına yuvarlanıb. Əvəzində Cahangir müəllimin ailə biznesi misli görünməmiş sürətlə böyüyüb, onun özü isə kifayət qədər oliqarxlaşaraq ölkənin ən böyük biznes imperiyalarından birinə sahib olan məmura çevrilib.

***Toğrul Əliyev***

20_27 IYUl-QARA.qxd 6/4/2026 10:44 PM Page 10



# Səlim Müslümovun bahalı evinə alıcı tapılmır

## Qiyməti yarım milyon manatdan da çox olan mənzil bu dəfə endirimlə hərraca çıxarılır - Sabiq nazir özü ala bilər?



***Sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun üzərinə həbs qoyulmuş mənzillərindən biri yenidən hərraca çıxarılır.***

"Oxu.az"ın yazdığına görə, sözügedən mənzil İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən iyunun 16-da keçiriləcək hərracda satışa təqdim olunacaq.

Hərrac elanına əsasən, söhbət Bakı şəhəri, Yasamal rayonu, Mirzə İbrahimov küçəsi, 422-ci məhəllə, ev 53, mənzil 108 ünvanında yerləşən daşınmaz əmlakdan gedir.

Sahəsi 370.4 kvadratmetr olan mənzilin start qiyməti 694 687.5 manat, beh məbləği isə 69 468.8 manat müəyyən edilib.

Elanda qeyd olunur ki, mənzil alıcı tapılmadığı üçün 4-cü dəfə 25 faiz endirimli qiymətlə təkrar hərraca çıxarılır.

Qeyd edək ki, S.Müslümov 27 milyon manat mənimsəmədə təqsirli bilinib və 13 ay həbsdə qalıb. Dövlətə dəymiş ziyanı ödədiyi üçün ona 5 ili sınaq müddəti olmaqla 11 il şərti cəza verilib. Əlavə olaraq keçmiş nazirin çoxsaylı əmlakı müsadirə edilib.

11 il şərti cəza verilən Müslümov bunu özü üçün humanist hökm kimi qarşılayıb, həmçinin əmlaklarının müsadirə edilməsinə etiraz etməyib. Dövlət ittihamçısının tələbinə uyğun cəza təyin edildiyinə görə hökmdən protest də verilməyib.

Apellyasiya şikayəti vermək üçün müddət başa çatdığı üçün birinci instansiya məhkəməsinin hökmü qanunu qüvvəyə minmiş sayılıb.

11 il Dövlət Sosial Müdafiə Fondunun rəhbəri, 5 il isə əmək və əhalinin sosial müdafiəsi naziri işləmiş Müslümov şərti məhkumluğu müddətində ölkədən çıxa bilməz. Bundan başqa, onun müsadirəsinə qərar verilmiş əmlaklarının ümumi qiymətinin 8 milyon manatdan çox olduğu deyilir.

Dövlət nəfinə alınan əmlakların siyahısı aşağıdakı kimidir:

- Binəqədi rayonu, Akademik Ziya Bünyadov prospektində yerləşən iki mənzil;
- Səbail rayonu, Azadlıq prospektində yerləşən qeyri-yaşayış sahəsi;
- Bakı şəhəri, Yasamal rayonu, Mirzə İbrahimov küçəsində mənzil;
- Nərimanov rayonu, Oqtay Kərimov küçəsində iki ev;
- Nərimanov rayonu, Məmməd Araz küçəsində ev;
- Binəqədi rayonu, 6-cı mikrorayonda yerləşən 500 və 300 kv.m torpaq sahələri;
- Bakı şəhəri, Xətai rayonu, Rəsul Rza küçəsində yerləşən 300 kv.m olan qeyri-yaşayış sahəsi.

Göründüyü kimi, sabiq nazirin üzərinə həbs qoyulmuş əmlakları arasında Bakı şəhərinin müxtəlif rayonlarında yerləşən mənzillər, qeyri-yaşayış sahələri və torpaq sahələri var. Məhkəmə prosesində açıqlanan siyahıda göstərilən Yasamal rayonundakı mənzil yuxarıda da yazdığımız kimi, artıq dördüncü dəfə hərraca çıxarılır.

Onu da deyək ki, hazırda şərti cəza çəkməyə davam edən sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun Bakının mərkəzində yerləşən müsadirə edilmiş obyekti bu ilin martında satılmışdı. 450 min manata hərraca çıxarılan qeyri-yaşayış sahəsini 600 min manata almışdılar.

Səbail rayonunun Azadlıq prospektindəki həmin obyekt 50, 6 kv.metr ərazidə yerləşirdi və icra məmuru əmlakı elə ilk hərracdaca satmışdı.

İndi isə sabiq nazirin qiyməti yarım milyon manatdan da xeyli yüksək olan mənzilinə alıcı tapmaq müşkülə çevrilib. Bəzi iddialar görə, Müslümov müsadirə edilən əmlaklarından bəzilərini yenidən əldə etməyin yollarını axtarır. Bu doğrudursa, 4-cü cəhddə 25 faiz endirimlə satışa çıxarılacaq mənzili onun özü də almaq istəyə bilər.

Lakin başqa bir iddiaya görə, keçmiş nazirin hazırda maddi durumu elə də yaxşı deyil.

Onu da deyək ki, Müslümovun məhkəməsindən ən yaddaqalan məqamlardan biri onunla hakim arasındakı dialoq olmuşdu. Belə ki, hakimin "İttiham üzrə özünüzü təqsirli bilirsinizmi?" sualına Səlim Müslümov "Bəli, tam təqsirli bilirəm" deyərək cavab vermişdi. Lakin ardınca da qəribə şəkildə əlavə etmişdi: "Sadəcə olaraq, ittiham aktında göstərilmiş mənimsənilən pulların mənim tərəfimdən mənimsənilməsi ilə bağlı hissə ilə razı deyiləm".

Belədə sual yaranmışdı: bir halda ki, mənimsəmə ittihamları ilə razı deyil, maraqlıdır, bəs onda sabiq nazir özünü nədə təqsirli bilir?!

Sonda onu da deyək ki, bu ilin noyabrında 65 yaşı tamam olacaq Müslümov əsasən Bakıda yaşayır, yay aylarını isə daha çox doğulduğu Ağsu rayonundakı mülkündə keçirir. Onun həbsindən sonra tutulan və vəzifədə ikən "sağ əli" olduğu bildirilən Əjdər Cəbiyev hələ də həbsdədir. Müslümovun nazir olduğu zaman Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində aparat rəhbəri postunu tutan və barəsində 8 il 6 ay həbs cəzası verilən Ə.Cəbiyev Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əjdər Ol təxəllüsü ilə tanınan şair-publisistdir.

***Toğrul Əliyev***

# Hesablama Palatasının hüquqları genişləndirilsin - Təklif




***Hesablama Palatasının hüquqlarının genişləndirilməsi təklif olunur.***

"Unikal" xəbər verir ki, bu məsələ Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bugünkü iclasında müzakirəyə çıxarılan "Hesablama Palatası haqqında" Qanuna təklif edilən dəyişiklik layihəsində əksini tapıb.

Layihədə qeyd olunur ki, qurum dövlət auditi ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən yaradılacaq informasiya sisteminə sahiblik edəcək və öz fəaliyyətini həyata keçirərkən həmin sistemdən istifadə edəcək.

Bundan başqa, təklif olunur ki, Hesablama Palatasının üzvləri dövlət auditoru hesab edilsinlər.

Məlumat üçün qeyd edək ki, Hesablama Palatasının üzvləri Hesablama Palatasının sədri, sədr müavini və 5 auditordan ibarətdir.

Sənəddə Hesablama Palatasının sədrinin səlahiyyətlərinin də genişləndirilməsi təkif olunur.

Dəyişikliklər qəbul olunacağı təqdirdə sədr Naxçıvan Muxtar Respublikası üzrə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəylərini, hesabatlarını, məlumatlarını və təkliflərini təqdim edə biləcək.

***Anar Kəlbiyev***

# Azərbaycanda yol nişanları ilə bağlı dəyişiklik olacaq




***"Yol hərəkəti haqqında" Qanuna məlumatverici-göstərici nişanlarla bağlı dəyişiklik təklif olunur.***

"Unikal" xəbər verir ki, bu məsələ Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bugünkü iclasında müzakirəyə çıxarılıb.

Mövcud qanunvericiliyə görə, məlumatverici nişanlar düzbucaq formasında olur, sürücülərin və hərəkətin digər iştirakçılarını yolun vəziyyətinin xüsusiyyətləri, yaşayış məntəqələrinin adları, onların keçmə qaydaları, küçələrin və yolların ayrı-ayrı sahələrində hərəkət rejiminin müəyyənləşdirilməsi üçün nəzərdə tutulub.

Bu qrup nişanların müxtəlif fonları vardır. Yaşıl fon avtomagistral, göy fon bütün başqa avtomobil yolları deməkdir.

Layihədə təklif olunur ki, göy fon avtomagistral və bütün avtomobil yollarını ifadə etsin.

# Susuzluqdan əziyyət çəkən 35 ölkə içərisində olacaq

***"Beynəlxalq təşkilatların hesablamalarına görə ölkəmiz 2050-ci ilə qədər susuzluqdan əziyyət çəkən 35 ölkə içərisində olacaq. Bu da bir növ aqrar sektorun transformasiyasında resurs əsaslı yanaşmanın da labüd olduğunu qeyd edir və Dövlət Proqramı da əsas hədəfləri müasir suvarma altında olan sahələrin 130 min hektardan 300 min hektara qədər çatdırılması hədəfini qarşısına qoyub".***

"Unikal" xəbər verir ki, bunu kənd təsərrüfatı nazirinin müavini Zaur Əliyev Kənd Təsərrüfatı Nazirliyində keçirilən mətbuat konfransında deyib.

O bildirib ki, bu bir növ məhsuldarlıq artımının da fundamental əsasını formalaşdıran yanaşma və tədbirdir: "Müasir suvarma və suvarma şəbəkəsinin yenilənməsi ilə yanaşı, torpaq konsolidasiyası da Dövlət Poqramının ilk dəfə Azərbaycanda tətbiq olunan əsas tədbirlərindən biridir".

***Anar Kəlbiyev***

20_27 IYUl-QARA.qxd 6/4/2026 10:44 PM Page 11





## "Kibertəhlükəsizlik sahəsində yeni yanaşmalar və tendensiyalar formalaşır" - XRİTDX

***İctimaiyyətə təqdim olunan statistik göstəricilər əsasən kritik informasiya infrastrukturlarına yönəlmiş kiberhücumları əhatə edir. Halbuki kritik infrastruktur dövlət qurumlarının yalnız təxminən 10 faizini təşkil edir və digər dövlət qurumlarına qarşı həyata keçirilən kiberhücumların sayı bundan daha çoxdur.***

"Unikal" xəbər verir ki, bunu Dövlət Təhlükəsizliyi Xidmətinin Milli Kibertəhlükəsizlik Mərkəzinin əsas tərəfdaşlığı ilə keçirilən "4-cü Milli Kibertəhlükəsizlik Forumu"nda Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) Baş idarə rəisinin müavini Tural Məmmədov "Milli kibertəhlükəsizlik ekosistemi" mövzusunda sessiyada çıxışı zamanı deyib. O bildirib ki, kiberhücumlarla bağlı açıqlanan rəqəmlər bəzən ictimaiyyət tərəfindən təəccüblə qarşılansa da, bu göstəricilər ölkədə kibertəhlükəsizlik sahəsində vəziyyətin real mənzərəsini ortaya qoyur.

"Milli kibertəhlükəsizlik ekosistemini insan orqanizmi ilə müqayisə etmək olar. İnsan orqanizmində bütün orqanlar bir-biri ilə əlaqəli şəkildə fəaliyyət göstərdiyi kimi, kibertəhlükəsizlik ekosisteminin də bütün komponentləri vahid mexanizm kimi işləməlidir. İnsan sağlamlığını qorumaq üçün mütəmadi müayinələrdən keçdiyi kimi, informasiya təhlükəsizliyi mühitinin də davamlı diaqnostikası aparılmalıdır", - deyə o vurğulayıb.

Baş idarə rəisinin müavini xatırladıb ki, Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi "Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Konsepsiyası"ndan irəli gələn tədbirlər planında informasiya təhlükəsizliyi üzrə bir sıra mühüm istiqamətlər müəyyən edilib. Həmin istiqamətlərdən biri də dövlət qurumlarında informasiya təhlükəsizliyi vəziyyətinin diaqnostikasının aparılmasıdır.

Onun sözlərinə görə, bu məqsədlə müvafiq qaydalar hazırlanaraq razılaşdırılma mərhələsindədir. Diaqnostika nəticəsində ekosistemin vəziyyəti qiymətləndiriləcək, mövcud boşluqlar aşkarlanacaq və onların aradan qaldırılması istiqamətində tədbirlər görüləcək.

Tural Məmmədov qeyd edib ki, hazırda kibertəhlükəsizlik sahəsində yeni yanaşmalar və tendensiyalar formalaşır. Bunlardan biri də "threat forecasting" - təhdidlərin proqnozlaşdırılması yanaşmasıdır. "İnsanlar günə başlamazdan əvvəl hava proqnozuna baxaraq planlarını qurduqları kimi, kibertəhlükəsizlik sahəsində də günə başlamazdan öncə hansı sektorların daha çox hədəf alındığını, hansı zəifliklərin aktiv şəkildə istismar edildiyini, hansı təhdid kampaniyalarının müşahidə olunduğunu və hansı hallarda ictimai xəbərdarlığın vacib olduğunu bilmək lazımdır", - deyə o bildirib.

O vurğulayıb ki, rəhbərlik etdiyi qurum tərəfindən kiberhücumlar və təhdidlər davamlı şəkildə təhlil edilir, onların vektorları müəyyənləşdirilir və əldə olunan analitik məlumatlar aidiyyəti qurumlarla paylaşılır. Bu da qabaqlayıcı müdafiə tədbirlərinin qurulmasında mühüm rol oynayır.

Tural Məmmədov son dövrlərdə ən aktual təhdidlərdən birinin təchizat zənciri (supply chain) üzərindən həyata keçirilən kiberhücumlar olduğunu diqqətə çatdırıb: "Ölkənin kibertəhlükəsizlik səviyyəsi nə qədər yüksək olsa da, təcrübə göstərir ki, bəzi hallarda dövlət qurumlarına birbaşa hücum etmək əvəzinə, onların etibar etdiyi tərəfdaşların, podratçıların və ya xidmət göstərən şirkətlərin şəbəkələrinə sızmaqla həmin qurumlara çıxış əldə olunur".

# MİDA-da 6 milyon manatlıq şok

## Əməliyyat zərəri kəskin artıb, mənfəəti isə milyonlarla manat azalıb - Qalmaqallı mənzil satışları ilə gündəmə gələn qurum gəlir və xərclərini də açıqlamır

***Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) 2025-ci ili 1 milyon 488 min 539 manat mənfəətlə başa vurub. Lakin bu göstərici 2024-cü illə müqayisədə nə az, nə çox, düz 2 milyon 928 min 862 manat və ya 66,3% azdır. Məsələ burasındadır ki, 2024-cü ildə Agentliyin il üzrə mənfəəti 4 milyon 417 min 401 manat təşkil etmişdi.***

Qurumun 31 dekabr 2025-ci il tarixində bitən il üzrə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış maliyyə hesabatlarında digər maraqlı məqamlar da yer alıb.

Marja.az-ın məlumatına görə, mənfəət vergisi çıxıldıqdan sonra MİDA-nın il üzrə cəmi məcmu gəliri 1 milyon 298 min 307 manat olub. Bu da 2024-cü illə müqayisədə 1 milyon 393 min 469 manat və ya 51,8% azalma deməkdir. 2024-cü ildə cəmi məcmu gəlir 2 milyon 691 min 776 manat idi.

Digər tərəfdən, hesabat ilində Agentliyin əməliyyat zərəri 10 milyon 335 min 330 manat təşkil edib. 2024-cü ildə bu göstərici 3 milyon 934 min 937 manat idi. Beləliklə, əməliyyat zərəri bir ildə 6 milyon 400 min 393 manat və ya 162,7% artıb.

Əməliyyat zərərinin artmasına maliyyə gəlirlərinin 2 dəfəyə yaxın azalması fonunda inzibati və ümumi xərclərin yüksəlməsi, həmçinin maliyyə aktivləri üzrə xalis dəyərsizləşmə zərərinin yaranmasına təsir edib.

2025-ci ildə Agentliyin inzibati və ümumi xərcləri 6 milyon 111 min 370 manat olub. Bu göstərici 2024-cü illə müqayisədə 1 milyon 842 min 487 manat və ya 43,2% artıb. 2024-cü ildə inzibati və ümumi xərclər 4 milyon 268 min 883 manat təşkil etmişdi.

Maliyyə aktivləri üzrə xalis dəyərsizləşmə zərəri isə 2025-ci ildə 4 milyon 223 min 960 manat olub. Halbuki 2024-cü ildə bu maddə üzrə 333 min 946 manat bərpa qeydə alınmışdı.

2025-ci ildə Mənzil İnşaatı Dövlət Agentliyinin maliyyə gəlirləri 6 milyon 777 min 300 manat təşkil edib. Bu, 2024-cü illə müqayisədə 6 milyon 80 min 63 manat və ya 47,3% azdır. 2024-cü ildə maliyyə gəlirləri 12 milyon 857 min 363 manat idi.

Hesabat dövründə mənfəət və ya zərərdə ədalətli dəyərlə əks etdirilən kreditlərin ədalətli dəyəri üzrə zərər 2 milyon 700 min 186 manat olub. 2024-cü ildə bu göstərici 7 milyon 125 min 670 manat təşkil etmişdi. Beləliklə, bu maddə üzrə zərər 4 milyon 425 min 484 manat və ya 62,1% azalıb.

2025-ci ilin sonuna Mənzil İnşaatı Dövlət Agentliyinin cəmi aktivləri 426 milyon 65 min 334 manat təşkil edib. 2024-cü ilin sonunda bu göstərici 517 milyon 383 min 32 manat idi. Beləliklə, Agentliyin aktivləri bir ildə 91 milyon 317 min 698 manat və ya 17,6% azalıb.

Azalma əsasən uzunmüddətli aktivlərdə qeydə alınıb. Uzunmüddətli aktivlər 114 milyon 104 min 147 manatdan 16 milyon 283 min 167 manata düşüb. Bu, 97 milyon 820 min 980 manat və ya 85,7% azalma deməkdir.

Uzunmüddətli aktivlərdəki kəskin azalmanın əsas səbəbi 2024-cü ildə uzunmüddətli borc qiymətli kağızlara investisiyaların 96 milyon 625 min 417 manat olması, 2025-ci ilin sonunda isə bu maddə üzrə qalıq göstərilməməsidir.

Həmçinin məlum olub ki, 2025-ci ilin sonuna Agentliyin cəmi kapitalı 424 milyon 416 min 246 manat təşkil edib. Bu göstərici 2024-cü illə müqayisədə 54 milyon 191 min 805 manat və ya 11,3% azalıb. Agentliyin nizamnamə kapitalı dəyişməyərək 100 milyon manat səviyyəsində qalıb.

Beləliklə, MİDA 2025-ci ili mənfəətlə başa vursa da, mənfəətin 66,3% azalması fəaliyyət nəticələrində ciddi zəifləmə olduğunu göstərir.

Hesabatda diqqət çəkən əsas məqamlardan biri isə əməliyyat zərərinin 2,6 dəfə artmasıdır.

Agentliyin öhdəliklərinin 95,7% azalması müsbət məqamdır, lakin kapitalın 54,2 milyon manat azalması və maliyyə gəlirlərinin zəifləməsi gələcək dövrlərdə Agentliyin maliyyə nəticələrinə təsir edə biləcək əsas amillərdən biri olaraq göstərilir.

Qeyd edək ki, MİDA artıq 2 ildir rəsmi veb-saytında maliyyə hesabatlarını dərc etmir. Sonuncu dəfə şirkətin 2023-cü il üzrə maliyyə hesabatları dərc olunub.



Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən illik hesabatın və maliyyə hesabatlarının (mikro və kiçik sahibkarlıq subyektləri istisna olmaqla) həminin tanış olması üçün hər il dərc edilməsi lazımdır.

Xatırladaq ki, Azərbaycanda xüsusilə az və orta təminatlı vətəndaşların, gənc ailələrin mənzil probleminin həll edilməsi məqsədilə həyata keçirilən islahatların davamı olaraq dövlət başçısının 11 aprel 2016-cı il tarixli 858 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi yaradılıb. Bununla yanaşı, ölkədə çoxmənzilli yaşayış binalarının tikintisinə rəvac vermək, Respublika vətəndaşlarının güzəştlə mənzillər əldə etmələrinə şərait yaratmaq, çoxmənzilli yaşayış binalarının tikintisi üçün ayrılan maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsini təşkil və təmin etmək məqsədilə həmin Agentliyin tabeliyində "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti formalaşdırılıb. Lakin MİDA xətti ilə indiyədək tikilərək satışa çıxarılan mənzillərin seçim prosesi bir qayda olaraq qalmaqallarla müşahidə olunub, vətəndaşlarda ciddi narazılıq yaradıb. Xüsusilə satış prosesinin cəmi bir neçə saniyə çəkməsi ortaya çoxsaylı şübhələr çıxarır. Bir çoxları hesab edir ki, proses obyektiv həyata keçirilmir və sosial mənzillərə həqiqətən də ehtiyacı olanlar kənarda qalır.

***Sənan Mirzə***

20_27 IYUI-QARA.qxd 6/4/2026 10:44 PM Page 12



## 5.3.7. işğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# "Böyük Qayıdış"da Qarabağ şəhərsalma modeli

## Cahid Həsənov: "Qarabağın şəhərsalma modelini yaxın beş ilə dünyaya örnək kimi təqdim edə biləcəyik"

***Işğaldan azad olunmuş torpaqlarımızda kəndlər, şəhərlər yenidən qurulur. "Böyük Qayıdış" proqramı əsasında yerlə-yeksan edilmiş torpaqlarımızda müasir kənd və şəhərlər salınır.***

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən müasir şəhərsalma siyasəti bir müddət əvvəl keçirilən qlobal Forumun əsas müzakirə istiqamətləri ilə birbaşa səsləşir. Azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının tətbiqi, yaşıl enerji zonalarının yaradılması, dayanıqlı infrastrukturun qurulması və rəqəmsal idarəetmə modelləri beynəlxalq miqyasda müasir urbanizasiya nümunəsi kimi təqdim olunur.

Forum çərçivəsində müzakirə edilən dayanıqlı inkişaf, iqlimə həssas şəhərsalma və innovativ idarəetmə prinsipləri Qarabağ və Şərqi Zəngəzurda aparılan yenidənqurma layihələrində öz əksini tapır. Ağdam, Füzuli, Zəngilan və Laçın kimi şəhərlərin baş planları ekoloji balansın qorunması, müasir nəqliyyat şəbəkəsinin qurulması və insan mərkəzli yaşayış modelinin yaradılması əsasında hazırlanıb.

Eyni zamanda, Forum beynəlxalq əməkdaşlığın genişləndirilməsi üçün platforma rolunu oynayır. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən layihələrin qlobal ekspertlərə təqdim olunması Azərbaycanın postmünaqişə dövründə innovativ şəhərsalma təcrübəsini dünyaya nümayiş etdirir. Bu yanaşma regionun yalnız bərpasını deyil, həm də gələcəyin dayanıqlı və yüksək texnologiyalı yaşayış məkanına çevrilməsini hədəfləyir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov WUF13-də çıxışı zamanı bildirib ki, Azərbaycan azad edilmiş Qarabağ ərazilərində şəhərləri yenidən qurarkən müasirlik, innovasiya və müxtəlifliyin uzlaşdırılmasına xüsusi diqqət yetirir.

"Şəhər bizim üçün yalnız körpü, yol və ya bina deyil, həm də insanların yaşadığı sosial və mədəni mühitdir", - deyə o əlavə edib.

Rəvan Həsənov qeyd edib ki, tarixi abidələrin, dini ibadət yerlərinin və müxtəlif icmaların mədəni irsinin qorunması şəhərlərdə sosial həmrəyliyin və qarşılıqlı hörmətin güclənməsinə xidmət edir.

Memar Cahid Həsənov da bu prosesi, Azərbaycanın müasir şəhərsalma tarixində yeni mərhələ kimi dəyərləndirir.

"Unikal" qəzetinə müsahibəsində memar bildirib ki, Qarabağ və Şərqi Zəngəzurda aparılan quruculuq işləri təkcə dağıdılmış şəhərlərin bərpası deyil, həm də gələcəyin urbanizasiya modelinin formalaşdırılmasıdır.



Onun sözlərinə görə, qlobal Forum Azərbaycanın həyata keçirdiyi layihələrin beynəlxalq memarlıq və şəhərsalma prinsipləri ilə uyğunluğunu nümayiş etdirir:" Xüsusilə "ağıllı şəhər", yaşıl enerji, ekoloji memarlıq və milli memarlıq ənənələrinin müasir texnologiyalarla birləşdirilməsi Qarabağ layihələrinin əsas üstünlüklərindən hesab oluna bilər. Ağdam, Füzuli və Zəngilan kimi şəhərlərin yenidən planlaşdırılması postsovet məkanında nadir urbanistik nümunələrdəndir. Bu şəhərlərdə küçəplanlaşdırma sistemi, ictimai məkanların təşkili və nəqliyyat həlləri artıq yalnız bugünün deyil, gələcək onilliklərin tələblərinə uyğun qurulur. Bu Forumda beynəlxalq mütəxəssislərlə fikir mübadiləsi Qarabağ və Şərqi Zəngəzurun dünya urbanizasiya xəritəsində innovativ region kimi tanınmasına imkan yaradır".

C. Həsənov bildirir ki, hazırda Azərbaycan dünyaya yeni şəhərsalma modelini təqdim edir.

"Ölkəmizin 20 faiz ərazisi yenidən qurulur. Təbii ki, bu proses dünya memarları üçün maraqlıdır. Azərbaycanın imkanı var ki, bu ərazidə elə modern şəhər və kəndlər qursun ki, sırf insanyönümlü olsun. Artıq ənənəvi şəhərsalma və layihələndirmə günümüzlə səsləşmir. İqlim dəyişiklikləri tələb edir ki, yeni şəhərlər, kəndlər salınarkən bu məsələlər nəzərə alınsın. Dünyada binalar inşa olunarkən iş prosesinə memarlarla yanaşı ekoloqlar da cəlb olunur. Qarabağda coğrafi şərait imkan verir ki, modern və insanyönümlü şəhərlər salınsın. Təbii işıqlandırması, havalandırması olan kənd və şəhərlər dünya üçün prioritet məsələyə çevrilib. Qarabağın amfiteatr formasında olması bizə təbii işıqlandırması və havalandırması olan şəhər və kəndlər salmağa imkan yaradır. Bu ərazilərdə təbii yaşıllıqların olması əvəzolunmaz nemətdir. Qarabağın zəngin təbii landşaftı və geniş yaşıllıq ehtiyatları regionda insanyönümlü şəhər konsepsiyasının formalaşdırılması üçün unikal imkan yaradır. Biz " Böyük Qayıdış" konsepsiyası əsasında Qarabağı yenidən qurub qurtardıqdan sonra Qarabağın şəhərsalma modelini yaxın beş ilə dünyaya örnək kimi təqdim edə biləcəyik" deyə müsahibimiz vurğulayıb.

Onun fikrincə, müasir şəhərsalma yalnız binaların tikintisi deyil, insanın fiziki və psixoloji rahatlığını təmin edən yaşayış mühitinin qurulması deməkdir:"Qarabağda meşələr, dağ landşaftı, çaylar və təbii ekosistemlərin mövcudluğu şəhərlərin daha sağlam və ekoloji balanslı şəkildə planlaşdırılmasına şərait yaradır. Bu baxımdan parklar, piyada zonaları, açıq ictimai məkanlar və velosiped infrastrukturu insanların gündəlik həyat keyfiyyətini artıran əsas elementlər kimi qiymətləndirilə bilər. Mənim fikrimcə, Ağdam, Şuşa və Laçın kimi şəhərlərdə təbiətlə memarlığın harmoniyası qorunduqca şəhərlər yalnız yaşayış məkanı deyil, həm də sosial və mədəni ünsiyyət mərkəzinə çevriləcək. İnsanyönümlü şəhər modeli insanların təbiətlə əlaqəsini itirmədən müasir urbanizasiya imkanlarından istifadə etməsini təmin edir. Qlobal Forumda müzakirə olunan dayanıqlı inkişaf və yaşıl şəhər prinsipləri də Qarabağ və Şərqi Zəngəzur üçün strateji əhəmiyyət daşıyır. Regionun təbii yaşıllığının qorunması və şəhər planlamasına inteqrasiya olunması Azərbaycanın gələcək şəhərsalma siyasətində nümunəvi model kimi təqdim oluna bilər"deyə memar əlavə edib.

Qeyd edək ki, Qarabağda müasir memarlıq təkcə bərpa deyil, "sıfırdan şəhər quruculuğu" mərhələsi kimi formalaşır və bir neçə konkret faktlarla xarakterizə olunur. Məsələn, Ağdam "ağıllı şəhər" prinsipi ilə yenidən qurulur. Şəhərin planında aşağı karbon emissiyalı zona, piyada və velosiped üstünlüklü mərkəz, modul tipli yaşayış məhəllələri, geniş yaşıl dəhlizlər nəzərdə tutulur.

Bundan əlavə, Zəngilan - Ağalı "Ağıllı kənd" layihəsi azad edilmiş ərazilərdə ilk pilot yaşayış məntəqəsidir. Burada günəş panelləri və ağıllı enerji idarəetməsi,

- rəqəmsal xidmətlər (e-government),
- ekoloji materiallarla tikilmiş evlər tətbiq olunub.
- Şuşanın bərpası və konservasiya yanaşması da xüsusi vurğulanmalıdır.
- Şuşada yeni tikililər tarixiliklə uyğunlaşdırılır. Bu qədim şəhərdə Qarabağ memarlıq üslubu qorunur,
- fasadlarda daş və taxta elementlərdən istifadə edilir, tarixi abidələrin restavrasiyası aparılır.

Qarabağ və Şərqi Zəngəzur ümumilikdə bərpa olunan enerji (külək və günəş), rəqəmsal idarəetmə sistemləri, ekoloji urbanizm prinsipləri ilə planlaşdırılır.

Bu faktlar göstərir ki, Qarabağda müasir memarlıq yalnız yeni binalar tikmək deyil, həm də ekoloji dayanıqlılıq, rəqəmsal texnologiya və milli memarlıq kimliyinin birləşdirilməsi əsasında formalaşan kompleks bir şəhərsalma modelidir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




## Azərbaycanın mədəni zənginlikləri Türkmənistanda təqdim olunacaq

***İyunun 5-də Türkmənistanda Azərbaycan Mədəniyyəti Günləri başlanır. Üç gün davam edəcək tədbirlər çərçivəsində ölkənin Arkadağ və Aşqabad şəhərlərinin sakinləri Azərbaycanın zəngin mədəni irsi, musiqi sənəti və yaradıcı ənənələri ilə yaxından tanış olmaq imkanı əldə edəcəklər.***

"Unikal" xəbər verir ki, proqramda konsertlər, sərgilər və müxtəlif mədəni tədbirlər nəzərdə tutulur. Bu layihə iki qardaş ölkə arasında humanitar əlaqələrin daha da möhkəmləndirilməsinə, eləcə də mədəni dialoqun genişlənməsinə xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun siyasi iradəsi nəticəsində iki qardaş ölkə arasında münasibətlər bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Azərbaycan Mədəniyyəti Günləri də bu əməkdaşlığın humanitar və mədəni sahədə növbəti əhəmiyyətli təzahürlərindən biridir.

Azərbaycan Mədəniyyəti Günləri Türkmənistanın mədəni həyatında əlamətdar hadisələrdən biri olmaqla yanaşı, ortaq tarixə, ənənələrə və mənəvi dəyərlərə əsaslanan iki ölkənin dostluq münasibətlərinin yüksək səviyyəsinin növbəti təzahürü olacaq. Bu tədbir xalqlarımız arasında qarşılıqlı anlaşmanın, mədəni yaxınlığın və mənəvi bağların daha da güclənməsinə töhfə verəcək.

## Azərbaycanın ən yaşlı sakini vəfat etdi

***Azərbaycanın ən yaşlı sakini 136 yaşında vəfat edib.***



"Unikal" xəbər verir ki, ölkənin ən yaşlı sakini olan 1890-cı il təvəllüdlü Tamam Əli qızı Əzizova bu gün müalicə aldığı Lənkəran Rayon Mərkəzi Xəstəxanasında ölüb.

Əslən Yardımlı rayonundan olan T.Əzizova ailə qurduqdan Lənkərana köçüb, 4 övladı olub.

20_27 IYUl-QARA.qxd 6/4/2026 10:44 PM Page 13





## Avtobus marşrutlarına onlayn bilet satışı artıb

***Bu ilin 5 ayında Azərbaycanda "biletim.az" portalı vasitəsilə onlayn qaydada 456 195 bilet əldə edilib.***

Bu barədə "Unikal"a Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) məlumat verilib.

Bildirilib ki, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,8 dəfə çoxdur.

2025-ci ilin yanvar-may ayları ərzində qabaqcadan satış üzrə biletlərin xüsusi çəkisi 31,8 % idisə, cari ilin müvafiq dövründə bu göstərici 43 %-ə yüksəlib. Bu artım sərnişinlərin avtovağzal xidmətlərinə etimadının artdığını və səfərlərini planlaşdırarkən onlayn bilet alışı imkanlarından daha fəal istifadə etdiklərini göstərir.

Hazırda "biletim.az" portalında 58 məntəqəyə 94 istiqamət üzrə bilet almaq mümkündür. Sistemə 364 reys olmaqla 411 nəqliyyat vasitəsi qoşulub. Onlayn bilet satışı sistemi mərhələli şəkildə sərnişindaşıma sahəsində xidmət göstərən bütün daşıyıcı və avtovağzalları əhatə edəcək.

Vaxta qənaət və müştəri məmnuniyyətinin təmin edilməsi məqsədilə "biletim.az" üzərindən tətbiqə giriş zamanı "myGov ID ilə giriş" funksionallığı təmin edilib. Eyni zamanada, istifadəçilərə əldə edilən bilet üzrə seçilmiş oturacaq yerinin dəyişdirilməsi və seçilmiş reys üzrə çıxış vaxtının digər reysə (saata) dəyişdirilməsi imkanı da yaradılıb.

## Milli Qurtuluş Gününə həsr olunan konsert keçiriləcək

***Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Günü münasibətilə Dənizkənarı Milli Parkda bayram konserti keçiriləcək.***

Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışının 33-cü ildönümünə həsr ediləcək konsert Saat qülləsinin qarşısında təşkil olunacaq.

Paytaxt sakinləri və şəhərimizin qonaqlarının sevimli istirahət məkanlardan biri olan Dənizkənarı Milli Parkda tanınmış müğənni və yaradıcı kollektivlərin iştirakı ilə rəngarəng musiqi proqramı təqdim ediləcək.

Bayram konserti atəşfəşanlıqla yekunlaşacaq.

## Çökən körpünün yerində yenisi tikilir

***M-2 Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yolunun 55-ci kilometrliyində, Qobustan qəsəbəsi ərazisindən keçən hissədə yerləşən qəzalı körpü sökülərək yeni körpünün inşasına start verilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi (AAYDA) məlumat yayıb.

Bildirilib ki, hazırda ərazidə svay vurma işləri yekunlaşdırılaraq, yeni körpünün dayaqlarının inşası istiqamətində müvafiq işlər görülür.

Qeyd olunub ki, 1980-ci illərdə inşa edilmiş 3 aşırımlı körpünün Bakı istiqamətindəki 3-cü aşırımında aşırım tirinin sınaraq çökməsi hadisəsi qeydə alınıb.

İlkin texniki qiymətləndirmələr nəticəsində körpünün artıq istismar üçün yararsız vəziyyətdə olduğu müəyyən edilib.

Qeyd edək ki, sözügedən körpü mayın 15-i çökmüşdü.

# Elvinin nəsibi şəhidlik zirvəsi oldu

***44 günlük haqq savaşımızda xalqımızın mərd oğulları 30 il əsir düşən torpaqlarımızın düşmən tapdağından təmizlənməsi uğrunda gedən ölüm-dirim vuruşunda ana qeyrətini, Azərbaycanın müqəddəsliyini hər şeydən üstün tutaraq odun-alovun içinə girdilər.***



Son damla qanına qədər ölümə meydan oxumaqla Vətəni alınmaz qalaya çevirdilər. Bu şərəfli mübarizə yolunda göstərdiyi misilsiz şücaəti ilə qəhrəmanlıq tariximizə adını yazan ərənlərdən biri də 13 sentyabr 1985-ci ildə Biləsuvar rayonunun Çaylı kəndində dünyaya göz açan Elvin Mürşüd oğlu Kərimovdur. Vətən yolunda şəhid olan Elvinin qısa ömrü torpağına, elinə-obasına sonsuz məhəbbət mücəssəməsinə dönərək milyonların ürəyinə köç etdi. Əbədiyaşar həyat qazanan igidin adı həm də, qərinələr boyunca "Vətən uğrunda", "İgidliyə görə", Suqovuşanın, Laçının azadlığı uğrunda medalları ilə qoşa çəkilər. Eləcə bizlərə əmanət qoyduğu üç qız övladı onun yarımçıq arzularını cücərdəcək bir amalla yaşayırlar.

Elvin Kərimov Vətəninə, xalqına sevgi, məhəbbətlə yaşa dolur. Məhz buna görə də orta təhsilini başa vurub müstəqil həyata qədəm qoyanda onun xoş ünsiyyətinə, ağıllı hərəkətlərinə, yüksək mədəniyyətinə el-obada heyran kəsilirlər. Ömrünün ən qaynar çağlarına qurub-yaratmaq həvəsi ilə başlasa da, əzəli yurd yerimiz Qarabağımızı erməni dığaların işğalı onu rahat buraxmır. Qanındakı vətənpərvərlik ruhu, yağıya nifrət hissi onu cəbhə bölgəsinə səsləyir. 2003-cü ildə Vətənin hər qarış torpağını azad görmək istəyi ilə Elvin ordu sıralarına yola düşür. Ən qaynar nöqtədə - düşmənlə qarşı-qarşıya adına can dediyi doğma Azərbaycanın keşiyində durur. Mərdlik, qorxuya nifrət, eləcə daxili enerjisi, sarsılmaz iradəsi həmişə Vətənin əsgər oğluna uğur gətirir. Odur ki, o, zabitlərin, əsgərlərin sevimlisinə çevrilir, Vətənə olan məhəbbətindən nümunə götürülür. Qarabağımızın azadlığı uğrunda canını hər an qurban verməyə hazır duran Elvin komandirlərin hər bir tapşırığını vaxtında yerinə yetirir, ürəyi düşmənlə döyüşə girib ondan istədiyi qisası almaqla döyünür.

Vətəninə, dövlətinə ləyaqətlə xidmət edən Elvin 2005-ci ildə ordudan tərxis olur, üzüağ evinə qayıdır. Amma dığalardan almadığı öcə görə əsgərliyin tez başa çatmasına darıxır, ruhu döyüş bölgələrdə qalır. Doğma kəndində halal əməkdən yapışır, həyat eşqi, bütün fəaliyyəti yalnız nəcib məqsədlərə yönəlir. Tez də cəmiyyətdə özünə qarşı dərin məhəbbət, ehtiram hisslərini oyada bilir. Qaldı ki, qan-qada törədən dığaların xəyanəti Elvini rahat buraxmır, qəlbində onlara olan nifrət hissi getdikcə güclənir və öz yerini Vətən, torpaq naminə səngərdə, döyüşdə görür. 2014-cü ildən MAHHXHQ kimi kiçik çavuş rütbəsində əlinə silah götürüb arzusuna çatmaq üçün məqam axtarır və qısa zaman kəsiyində xüsusi təyinatların tərkibində qatıldığı təlimlərdə fəal olmaqla zəngin döyüşçü təcrübəsi qazanır. Vətən torpaqları uzun müddət düşmən tapdağında olduğuna görə sanki hərbi Elvinə ruhun ehtiyacına çevrilir, yurdun azadlığına gedən yola özünü tam hazır sayır. Həmişə də deyir ki, erməni dığaların sonu yetişib, qan yerdə qalmaz, qisasımızı tezliklə alacağıq.

Belə də olur. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixdə başlayan Vətən müharibəsində sevincindən yerə-göyə sığmır. Axı, çoxdan gözlədiyi məqam yetişmişdi. Qələbəyə inamla odun-alovun işinə birincilər cərgəsində atılır və bu müqəddəs yolda canını qurman verməyi özünə şərəf bilir. Ölümə meydan oxuyan qəhrəman neçə-neçə ağır döyüşlərdə rəşadət nümunəsi göstərərək yağıya ciddi itkilər verir. Torpaq uğrunda axıtdığı qan zəfər bayrağına dönüb göylərə yüksəlir. Təəssüf ki, Elvinin döyüş yolu Suqovuşan istiqamətində başa çatır. Oktyabrın 10-da Suqovuşanın azad edilməsi uğrunda gedən ağır savaş zamanı yaxınlığına düşən tank əleyhinə minanın qəlpəsi Vətənə sevdalanan qəhrəman ürəyinə dəyir. 35 yaşında əli ürəyinin başında əbədiyyətə qovuşur, doğma Çaylı kəndində hər qarışı müqəddəs bildiyi torpağa tapşırılır.

Elvin Kərimov bu işıqlı dünyada az yaşadı. Qaldı ki, ömrünü Vətənin azadlığı, xalqının xoşbəxtliyi naminə sərf etdi. Belə yaşayanlar ölmürlər, onların qəbirləri də zaman-zaman nur saçır.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Doktorantura və dissertanturaya qəbul imtahanının tarixləri

***Doktoranturaya qəbul olmaq istəyən namizədlər və doktoranturada oxuyan iddiaçıların xarici dillər üzrə imtahana, həmçinin əcnəbilər üçün Azərbaycan dili imtahanına qeydiyyat Mərkəzin saytı vasitəsilə 11-14 iyunda aparılacaq.***



"Unikal" xəbər verir ki, bu barədə Dövlət İmtahan Mərkəzi məlumat yayıb.

İmtahan qrafikinə əsasən əcnəbi və vətəndaşlığı olmayan iddiaçıların Azərbaycan dili üzrə fəlsəfə doktoru imtahanı bütün bloklar üzrə iyunun 16-da keçiriləcək.

Doktoranturaya qəbul olmaq istəyən namizəd və doktoranturada oxuyan iddiaçıların danışıq bloku imtahanı 17 - 19 iyun tarixlərində keçiriləcək. Danışıq bloku üzrə qiymətləndirilmə şifahi formada kompüter proqramı vasitəsilə aparılır.

İyunun 25-də isə imtahanın dinləyib-anlama, oxuyub-anlama, dildən istifadə (leksik-qrammatik tapşırıqlar) və yazı blokları keçiriləcək.

Xarici dil üzrə qəbul imtahanında bloklar üzrə müvafiq bal məhdudiyyəti (2 bal) nəzərə alınmaqla keçid balını (25 bal) toplamış namizədlər fəlsəfə, sonra isə ixtisas fənnindən imtahana buraxılırlar. Qəbul imtahanında 30 və daha çox bal toplayan namizədlər dissertasiyalarını həmin imtahanı verdikləri tarixdən beş il müddətində ilkin müzakirəyə təqdim etdikləri təqdirdə xarici dil üzrə fəlsəfə doktoru imtahanından azad olunurlar.

20_27 IYUl-QARA.qxd 6/4/2026 10:44 PM Page 14



# 2026-cı ilin birinci rübündə Sumqayıt şəhərinin sosial-iqtisadi göstəriciləri belə olub



***2026-cı ilin yanvar- mart aylarında məhsul buraxılışının həcmi 1021110,6 min manat olmuşdur.***

2026-cı ilin hesabat dövründə sənaye təsərrüfat subyektlər, ev təsərrüfatları və fərdi sahibkarlar tərəfindən istehsal olunmuş mal və xidmətlərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 6,1 faiz azalaraq 776619,7 min manat təşkil etmişdir.

Hesabat dövründə emal sənayesində 2026-cı ilin yanvar-mart aylarında 667648,4 min manatlıq məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Buda 2025-ci ilin müvafiq dövrünə nisbətən sabit qiymətlərlə 3,2 faiz az olmuşdur.

2026-cı ilin yanvar-mart aylarında sənaye məhsulunun 0,05 faizi mədənçıxarma, 85,97 faizi emal, 12,81 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,17 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

**Tikinti**

2026-cı ilin yanvar-mart aylarında şəhərin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 95439,0 min manat investisiya yönəldilmişdir.

Əsas kapitala yönəldilmiş vəsaitlərin 82298,5 min manatı və ya 86,2 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

**Nəqliyyat**

2026-cı ilin yanvar-mart aylarında nəqliyyat sahəsində fəaliyyət göstərən statistik vahidlərin təqdim etdikləri işlər, müəyinələr nəzərə alınaraq göstərilmiş işin həcmi əvvəlki illə müqayisədə 12,7 faiz azalaraq 9675,2 min manat təşkil etmişdir.

2026-cı ilin yanvar-mart aylarında avtomobil nəqliyyatı ilə 1218 min ton yük daşınmış və 2025-ci ilin yanvar-mart aylarına nisbətən 7,3 faiz, avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 42237 min nəfər sərnişin daşınmış və 2025-ci ilin yanvar-mart aylarına nisbətən 9,1 faiz artmışdır.

**İnformasiya və rabitə**

İnformasiya və rabitə sahəsində fəaliyyət göstərən müəssisələr tərəfindən 2026-cı ilin yanvar-mart aylarında 22543,2 min manat təşkil etmişdir ki, onun da 3765,7 min manatı (16,7 faizi) əhali tərəfindən istifadə olunmuşdur. Əhaliyə göstərilmiş xidmətlərin dəyəri 2025-ci ilin yanvar-mart aylarına nisbətən 36,9 faiz azalmışdır.

Xidmətlərin ümumi həcmində dövlət sektorunun xüsusi çəkisi 10,8 faiz, qeyri-dövlət sektorunun xüsusi çəkisi 89,2 faiz təşkil etmişdir.

**Ticarət və istehlak bazarı**

2026-cı ilin yanvar-mart ayları ərzində istehlakçıların tələbatının ödənilməsi məqsədi ilə 718506,7 min manat olmaqla olmaqla 2025-ci ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə 9,8 faiz artıq istehlak malları satılmış və ödənişli xidmətlər göstərilmişdir.

Hesabat dövründə ticarət dövriyyəsinin həcmi ötən ilin eyni dövrü ilə müqayisədə sabit qiymətlərlə 10,2 faiz artaraq 556286,9 min manat təşkil etmişdir.

İaşə şəbəkələrində əhaliyə 17353,57 min manatlıq və ya ötən ilin eyni dövrü ilə müqayisədə 5,2 faiz çox iaşə xidmətləri göstərilmişdir.

Əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri 2025-ci ilin müvafiq dövrünə nisbətən real ifadədə 8,8 faiz artaraq 144866,3 min manat təşkil etmişdir.

**Əhali**

İlin əvvəlindən Sumqayıt şəhər əhalisinin sayı (məcburi köçkünlər istisna olmaqla) 548 nəfər artaraq 01.04.2026-cı il vəziyyətinə 428,4 min nəfərə çatmışdır. Əhalinin 49,9 faizini (213,7 min nəfər) kişilər, 50,1 faizini (214,6 min nəfər) qadınlar təşkil edir.

Ədliyyə Nazirliyinin şəhər qeydiyyat şöbələri tərəfindən 2026-cı ilin yanvar-mart aylarında 686 doğulan körpə qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər min nəfərinə bu göstərici azalaraq 7,6-dan 4,8-ə düşmüşdür.

2026-cı ilin yanvar-mart aylarında 447 ölüm halı qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 5,1-dən 3,4-ə düşmüşdür.

2026-cı ilin yanvar-mart aylarında şəhərdə 265 nikaha daxil olma və 130 boşanma halları qeydə alınmışdır.

***Sumqayıt Şəhər Statistika İdarəsi***

# 2025-ci ildə Astara rayonunda demoqrafik vəziyyət haqqında statistika

***Astara rayonunda əhalinin sayı ilin əvvəlindən 831 nəfər və ya 0,7 faiz artaraq 2026-cı il yanvar ayının 1-i vəziyyətinə 113646 nəfərə çatmışdır. Rayonda bir kvadrat metrə düşən əhalinin sayı 183 nəfər olmuşdur.***

Əhalinin 29,9 faizini şəhər, 70,1 faizini kənd sakinləri, 50,4 faizini kişilər, 49,6 faizini isə qadınlar təşkil edir. Hazırda rayonda hər 1000 kişiyə 984 qadın düşür.

2025-ci ildə Ədliyyə Nazirliyinin rayon qeydiyyat şöbəsi tərəfindən 1424 doğulan körpə qeydə alınmış və 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 13,7-dən 12,6-ya düşmüşdür. Doğulan körpələr arasında oğlan uşaqlarının xüsusi çəkisi 52,2 faiz, qız uşaqlarının xüsusi çəkisi isə 47,8 faiz olmuşdur. Hazırda rayonda hər 100 doğulan qıza 109 oğlan düşür.




2025-ci ildə rayonda 605 ölüm halı qeydə alinmiş və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi keçən illə eyni səviyyədə qalaraq 5,3 olmuşdur. 2025-ci ildə əhalinin təbii artımı 819 nəfər olmuş və keçən ilə nisbətən əhalinin hər 1000 nəfərinə 8,4-dən 7,3-ə qədər azalmışdır. 2025-ci ildə əhalinin miqrasiya artımı 12 nəfər, ümumi artımı isə 831 nəfər olmuşdur.

Ötən il Ədliyyə Nazirliyinin Astara rayon qeydiyyat şöbəsi tərəfindən 599 nigah və 182 boşanma halları qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 5,5-dən 5,3-ə qədər azalmış, boşanmaların sayı isə 1,4-dən 1,6-ya qədər artmışdır.

***Astara Rayon Statistika İdarəsi***



# Avtonom nəqliyyat vasitələrində operator olmaq istəyənlərin nəzərinə!

***Avtonom nəqliyyat vasitələrində operator olmaq istəyənlərə dair tələblər müəyyənləşir.***

"Unikal" xəbər verir ki, bu məsələ Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bugünkü iclasında müzakirəyə çıxarılan "Nəqliyyat haqqında" Qanuna təklif edilən dəyişiklik layihəsində əksini tapıb.

Layihədə bildirilib ki, avtonom nəqliyyat vasitələrinin avtomatlaşdırılmış idarəetmə sistemi vasitəsilə idarə edilməsinə nəzarəti həyata keçirən operator fiziki şəxs olduqda özü, hüquqi şəxs olduqda isə işçiləri aşağıdakı tələblərə cavab verməlidir:

- avtonom nəqliyyat vasitələrinin istismarı, avtomatlaşdırılmış idarəetmə sistemləri, nasazlıq və fövqəladə hallar (hadisələr) baş verdikdə müdaxilə (hərəkətin dayandırılması ilə bağlı) üzrə hazırlıq və təlim keçməli;
- terrorçuluq, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə, həyat və sağlamlıq əleyhinə, mülkiyyət əleyhinə, iqtisadi fəaliyyət sahəsində, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar ağır və (və ya) xüsusilə ağır cinayətlərə görə məhkum edilməməli;
- ödənilməmiş və ya götürülməmiş məhkumluğu olmamalı;
- fəaliyyət qabiliyyətinə malik olmaması və ya məhdud fəaliyyət qabiliyyətinə malik olmasına dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olmamalı;
- barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiqinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olmamalı;
- fiziki və psixi cəhətdən sağlam olmalı.

***Anar Kəlbiyev***

# Onlardan sürücülük vəsiqəsi tələb olunacaq

***Moped istifadəsi üçün sürücülük vəsiqəsi tələb olunacaq.***

"Unikal" xəbər verir ki, bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında müzakirəyə çıxarılan "Dövlət rüsumu haqqında" Qanuna təklif olunan dəyişikliklərdə öz əksini tapıb.

Layihəyə əsasən, mopedlərin müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatından keçirilərək uçota alınması və bunun əsasında onlara dövlət qeydiyyat nişanının verilməsi, habelə mopedlərin sürücülük vəsiqəsi əsasında idarə olunması müəyyən olunub.

Bununla da nəqliyyat vasitəsi sürücüləri üçün nəzərdə tutulmuş bir sıra vəzifələr moped sürücülərinə də şamil olunacaq. Beləliklə, mopedi idarə etmək üçün "A1" kateqoriyalı sürücülük vəsiqəsi, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi və dövlət qeydiyyat nişanı tələb olunacaq.



## İsrail və Livan yenidən razılaşdılar

***Vaşinqtonun vasitəçiliyi ilə aparılan danışıqlardan sonra İsrail və Livan "Hizbullah"ın hücumları tamamilə dayandırması şərti ilə atəşkəsi qorumaq barədə razılığa gəliblər.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ Dövlət Departamenti bəyanat yayıb.

"ABŞ-nin rəhbərliyi ilə aparılan danışıqlar nəticəsində İsrail və Livan atəşkəs barədə razılığa gəliblər. Bu atəşkəs "Hizbullah" tərəfindən tam atəşkəs elan edilməsindən və bütün "Hizbullah" döyüşçülərinin Litani çayının cənubundakı ərazidən təxliyə edilməsindən asılıdır", - deyə açıqlamada qeyd olunub.

Qeyd olunur ki, tərəflər həmçinin nəzarətin tamamilə Livan silahlı qüvvələri tərəfindən həyata keçiriləcəyi eksperimental zonalar yaratmaq barədə razılığa gəliblər.

***Gülayə Mecid***

## Rusiya yenə Ermənistanda referendum tələb etdi

***İrəvanın qısa müddətdə referendum keçirməsi daha yaxşıdır.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Baş nazirinin müavini Aleksey Overçuk deyib.

O, Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunda bildirib: "Ermənistanın qısa müddətdə referendum keçirib Avrasiya İqtisadi Birliyində qalmaq və ya Avropa Birliyinə qoşulmaq istəyib-istəmədiyinə qərar verməsi, bəlkə də, daha yaxşıdır".

***Ağarza Elçinoğlu***

## "Rusiya Ermənistana pul ödəməyəcək" - Zaxarova

***Rusiyanın Ermənistanın Avropa İttifaqına üzvlüyü üçün pul ödəmək niyyəti yoxdur.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova bdeyiub.

Diplomatın sözlərinə görə, Ermənistan rəhbərliyi eyni vaxtda müxtəlif inteqrasiya birlikləri ilə münasibətlərini inkişaf etdirir.

Qeyd edək ki, Rusiya Baş nazirinin müavini Aleksey Overçuk bildirmişdi ki, Ermənistan Aİ-ni (Avropa İttifaqı) AİB-dən (Avrasiya İqtisadi Birliyi) daha yaxşı hesab edərsə, Aİ-yə qoşula bilər.

***Gülayə Mecid***

### ELAN

FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən Zeyniyev Altay Oqtay oğluna məxsus AA 03325 (bort nömrəsi ABA-1878) nömrəli gəmi bileti itdiyi üçün etibarsız sayılır.

****************************************

FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən Heydərov Ziya Fikrət oğluna məxsus AA 05106 (bort nömrəsi ABA-1636) nömrəli gəmi bileti itdiyi üçün etibarsız sayılır.

# Ermənistan və ABŞ TRIPP sazişini imzaladı

***Ermənistan və ABŞ arasında TRIPP üzrə çərçivə sazişi imzalanıb.***

"Unikal" xəbər verir ki, sənəd ABŞ dövlət katibi Marko Rubio tərəfindən imzalanıb və Ermənistan xarici işlər naziri Ararat Mirzoyana göndərilib.

A.Mirzoyan da öz növbəsində mühüm sənədə imza atıb.



Xatırladaq ki, 26 may tarixində Ararat Mirzoyan və Marko Rubio İrəvanın Zvartnots hava limanında bir sıra sənədləri, o cümlədən "ER və ABŞ arasında beynəlxalq sülh və rifah naminə Tramp yolunda strateji əməkdaşlıq haqqında çərçivə sazişi"ni və "ER və ABŞ arasında hərtərəfli strateji tərəfdaşlıq Xartiyasını" paraflayıblar.

***Gülayə Mecid***

# Müharibəni bitirən qətnamə təsdiqləndi

***ABŞ Nümayəndələr Palatası Prezident Donald Trampın İran müharibəsindəki səlahiyyətlərini məhdudlaşdıran qətnaməni təsdiqləyib.***

"Unikal" xəbər verir ki, Konqres Prezidentə rəsmi olaraq müharibə elan etmədiyi və ya hərbi güc tətbiqinə icazə vermədiyi təqdirdə sənəd İrana qarşı düşmənçilik hərəkətlərindən çəkinməyi tapşırır.

Dövlət katibi Marko Rubionun Tehrana qarşı Amerika hərbi əməliyyatlarının başa çatdığına dair verdiyi zəmanətlərə baxmayaraq, qətnamə 208 səslə qəbul edilib. Bütün Demokratlar, eləcə də Trampın dörd respublikaçı həmkarı lehinə səs verib.

Sənədin növbəti dayanacağı oxşar qanun layihəsinin də dövriyyədə olduğu Konqresin yuxarı palatası olan Senatdır. Hər iki palata tərəfindən qəbul edildikdən sonra prezident onu qanun kimi imzalamalıdır, lakin Trampın veto qoyması da gözlənilir.

***Ağarza Elçinoğlu***



# Norman etimadnaməsinin surətini Bayramova təqdim etdi

***Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Krallığın ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Dankan Normanı qəbul edib.***

"Unikal" xəbər verir ki, bu barədə XİN məlumat yayıb. Bildirilib ki, görüş zamanı səfir Norman etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib. Nazir səfiri yeni təyinatı münasibətilə təbrik edib, ona Azərbaycandakı diplomatik fəaliyyətində uğurlar arzulayıb.

Görüş zamanı Azərbaycan-Birləşmiş Krallıq münasibətlərinin mövcud vəziyyəti və perspektivləri, qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.



Tərəflər Azərbaycan ilə Birləşmiş Krallıq arasında siyasi, iqtisadi, enerji, ticarət, investisiyalar, təhsil və digər sahələrdə əməkdaşlığın uğurla inkişaf etdiyini məmnunluqla qeyd ediblər. Bununla yanaşı, münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi, yüksək səviyyəli qarşılıqlı təmasların və iqtisadi tərəfdaşlığın daha da genişləndirilməsinin vacibliyi vurğulanıb.

Nazir Ceyhun Bayramov bölgədə mövcud vəziyyət, postmünaqişə dövründə yaranmış reallıqlar, habelə Azərbaycan-Ermənistan normallaşma prosesi, ölkəmiz tərəfindən atılan addımlar barədə qarşı tərəfi ətraflı məlumatlandırıb.

Səfir Dankan Norman Azərbaycanda fəaliyyətə başlamaqdan məmnunluğunu ifadə edib, ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də nəzərdən keçirilib.

# "İranla danışıqlardan məmnunam" - Tramp

***ABŞ prezidenti Donald Tramp İranla münaqişənin həlli ilə bağlı danışıqların gedişatından məmnun olduğunu bildirib.***

"Unikal" xəbər verir ki, o, bu barədə Ağ Evdə jurnalistlərə açıqlamasında deyib.

"Hər şey yaxşı gedir", - deyə Tramp ifadə edib.

Razılığa gəlmək şanslarından danışan Amerika prezidenti nə müsbət, nə də mənfi ssenarini istisna etməyib. "Bəlkə də heç nə baş verməyəcək. Yaxud bəlkə də hər şey uğurlu olacaq və sonra bu həftənin sonuna qədər uğur qazanmaq şansı var", - deyə o bildirib. Trampın sözlərinə görə, İran "nəzəri olaraq saziş imzalamağa yaxındır".

***Gülayə Mecid***



# Paşinyan Meğrinin verilməsindən danışdı

***"Ermənistan artıq periferik bölgə və çıxılmaz nöqtə deyil, Ermənistan mərkəz və yol ayrıcıdır".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan seçki kampaniyası zamanı deyib.

"Müxalifətin əvvəllər dediklərini xatırlayırsınızmı: onlar Meğridən dəhliz verirlər, onlar Meğrini verirlər və s. Söz verdilər, dəhliz vəd etdilər,



amma vermirlər, buna görə də pis olacaq. Bu gün həmin sənədlər açılıb, paraflanıb. Və açıq şəkildə bildirilir ki, TRIPP layihəsi Ermənistanın suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyası çərçivəsində fəaliyyət göstərəcək", - deyə o qeyd edib.

O, bütün bunları dəhliz vermək və dəhliz vəd etmək nə qədər yalan və məsuliyyətsiz tezis olduğunu göstərmək üçün dediyini açıqlayıb.

***Ağarza Elçinoğlu***

# İngiltərə Premyer Liqasının ən bahalı futbolçuları - SİYAHI

***Məşhur "Transfermarkt" portalı İngiltərə Premyer Liqasında çıxış edən futbolçuların bazar qiymətlərini yeniləyib.***



"Unikal" xəbər verir ki, siyahıya "Mançester Siti"nin hücumçusu Erlinq Holann başçılıq edir. Son yenilənmədən sonra norveçli hücumçunun transfer dəyəri 200 milyon avro olub.

İkinci sırada "Arsenal"ın yarımmüdafiəçisi Deklan Rays (120 milyon) qərarlaşıb. İlk "üçlüy"ü London klubunun digər üzvü Bukaya Sako (110 milyon) tamamlayıb.

**Premyer Liqanın ən bahalı 10 futbolçusu**

1. Erlinq Holann ("Mançester Siti") - 200 milyon avro
2. Deklan Rays ("Arsenal") - 120 milyon avro
3. Bukayo Saka ("Arsenal") - 110 milyon avro
4. Florian Virts ("Liverpul") - 100 milyon avro
5. Koul Palmer ("Çelsi") - 100 milyon avro
6. Moyses Kaysedo ("Çelsi") - 100 milyon avro
7. Uilyam Saliba ("Arsenal") - 100 milyon avro
8. Dominik Soboslai ("Liverpul") - 100 milyon avro
9. Rayan Şerki ("Mançester Siti") - 90 milyon avro
10. Morqan Rocers ("Aston Villa") - 90 milyon avro

# Kişi voleybolçulardan ibarət Azərbaycan millisi Avropa Liqasına hazırlığı başa vurub

***Kişi voleybolçulardan ibarət Azərbaycan millisi Avropa Liqasına hazırlıq prosesini başa vurub.***

Voleybol Federasiyasından "Unikal"a bildirilib ki, komanda Ankarada təşkil olunan təlim-məşq toplanışının son mərhələsini yekunlaşdırıb. Yığma iyunun 5-də yarışın ilk turunun oyunlarının keçiriləcəyi İsveçə yola düşəcək.



Ankara toplanışı çərçivəsində Azərbaycan millisi Türkiyə yığması ilə iki yoxlama oyunu keçirib. Matçların birində ev sahibi 3:0 hesabı ilə qalib gəlib, ikinci qarşılaşmada isə heç-heçə qeydə alınıb - 2:2.

Qeyd edək ki, Azərbaycan millisi Avropa Liqasında ilk oyununu iyunun 6-da Yunanıstan yığmasına qarşı keçirəcək. Növbəti görüş isə iyunun 7-də ev sahibi İsveçə qarşı olacaq.

# Nazir müavini: Üzgüçülük insanların sağlam həyata addım atması üçün önəmlidir

***"Uzgüçülük hamı üçün" layihəsinə maraq böyükdür.***

Bu sözləri Azərbaycan Üzgüçülük Federasiyasının prezidenti Zaur Əliyev Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi dövlətlərin iştirakçıları ilə "Üzgüçülük hamı üçün" layihəsinin final mərhələsinin açılış mərasimindən sonra jurnalistlərə açıqlamasında deyib.

Federasiya prezidenti bildirib ki, layihə iştirakçılar tərəfindən böyük maraqla qarşılanır və ildən-ilə daha geniş auditoriyanı əhatə edir: "2025-ci ildən bu günədək 500-dən çox iştirakçı bu yarışlarda qüvvəsini sınayıb. Hazırda final mərhələsində 70-ə yaxın üzgüçü mübarizə aparır".

Onun sözlərinə görə, bu cür yarışların təşkilində əsas məqsəd ölkədə üzgüçülüyün kütləviliyini artırmaq və daha çox insanı bu idman növünə cəlb etməkdir: "Üzgüçülük yalnız idman növü deyil, həm də sağ-




lam həyat tərzinin vacib hissəsidir. Bu baxımdan belə layihələrin əhəmiyyəti böyükdür".

# "Şamaxı" braziliyalı futbolçu ilə vidalaşdı

***"Şamaxı" komandası futbolçusu Sezar Enrike ilə yollarını ayırıb.***

Klubdan "Unikal"a bildirilib ki, braziliyalı müdafiəçi ilə başa çatan müqavilənin müddəti uzadılmayıb.

Qeyd edək ki, Sezar Enrike ötən ilin yayından bölgə təmsilçisinin formasını geyinirdi.



# "Qalatasaray" ona illik 10 milyon maaş təklif edir

***"Milan"ın portuqaliyalı hücumçusu Rafael Leao "Qalatasaray"a keçə bilər.***




"Unikal" İdman.Biz-ə istinadən bildirir ki, bu barədə jurnalist Daniele Longoya istinadən bildirir.

Cinah oyunçusu daha əvvəl yayda İtaliya klubundan ayrılacağını açıqlamışdı.

Mənbənin məlumatına görə, Türkiyə komandası oyunçuya ildə 8 milyon avro maaş və 2 milyon avro bonus təklif edir. İtalyanlar transfer üçün təxminən 60 milyon avro istəyirlər.

Ötən mövsüm 26 yaşlı portuqaliyalı bütün yarışlarda 31 oyunda meydana çıxıb, 10 qol vurub və üç məhsuldar ötürmə edib. Transfermarkt-ın məlumatına görə, onun bazar dəyəri 50 milyon avrodur.

# Addaidən "Qarabağ" paylaşımı



***"Qarabağ"dan ayrılan Emmanuel Addai ilə klubla bağlı sosial media hesabında paylaşım edib.***

QOL.az xəbər verir ki, qanalı futbolçunun paylaşımında bildirilib:"Bu səhifə bağlanarkən, sadəcə olaraq hər şeyə görə Qarabağ FK-ya təşəkkür etmək istəyirəm. Azarkeşlərə, klub əməkdaşlarına, məşqçilərə və komanda yoldaşlarıma göstərdikləri dəstəyə, mənimlə qalacaq xatirələrə və yaşatdıqları təcrübələrə görə minnətdaram. Bu klubun bir parçası olmaq mənim üçün böyük şərəf idi və burada keçirdiyim vaxta görə hər zaman təşəkkar olacağam. Klubla əlaqəsi olan hər kəsə gələcəkdə davamlı uğurlar və xoşbəxtlik arzulayıram".

Xatırladaq ki, "Qarabağ" bugünlərdə klubla müqaviləsi başa çatan Emmanuel Addai ilə yolları ayırdığını açıqlayıb.

# "Çelsi"nin əfsanəsi vəfat etdi

***İngiltərə futbolunun tanınmış simalarından biri, "Çelsi"nin əfsanəvi hücumçusu Bobbi Tembling 84 yaşında dünyasını dəyişib.***



Bu barədə onun vaxtilə çalışdırdığı "Kroşaven" klubu sosial şəbəkə hesablarında məlumat yayıb.

Bildirilib ki, sabiq futbolçu uzun sürən xəstəlikdən sonra vəfat edib.

Bobbi Tembling "Çelsi" tarixinin ən məhsuldar futbolçularından biri hesab olunur. O, 1959-1970-ci illərdə London klubunun formasını geyinib, 370 oyunda 202 qol vurub. Uzun illər klubun bombardiri olan Temblinqin rekordu yalnız 2013-cü ildə Frenk Lempard tərəfindən yenilənib. Buna baxmayaraq, o, hələ də "Çelsi"nin İngiltərə çempionatları tarixində ən çox qol vuran (164) futbolçusudur.

Qeyd edək ki, Temblinq klub tarixində bir oyunda vurulan qolların sayına görə də rekordçulardan biridir. O, 1966-cı ildə "Aston Villa" ilə matçda 5 qol vuraraq yadda qalan performans nümayiş etdirib.

# "Trabzonspor" futbolçusunu AEK-ə satdı

***"Trabzonspor"un ukraynalı futbolçusu Aleksandr Zubkov Yunanıstanın AEK klubuna transfer olunub.***

QOL.az xəbər verir ki, bu barədə Türkiyə klubunun mətbuat xidməti məlumat yayıb.

"Trabzonspor" bu transferdən 4 milyon avro qazanacaq. Bundan başqa, 29 yaşlı vinger gələcəkdə başqa kluba satılarsa, məbləğin 10 faizi "Trabzonspor"a ödəniləcək.

Qeyd edək ki, Zubkov 2025-ci ildən Trabzon təmsilçisində çıxış edirdi. O, buna qədər "Şaxtyor", "Ferentsvaroş" "Mariupol" klublarının formasını geyinib.

Zubkob Ukrayna millisində 43 oyunda 3 qol vurub.